HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 20 (660) ▪ 30 may 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət etmişdir

*1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın həyatına böyük və tarixi hadisə kimi daxil olmuşdur.*



Müstəqil, azad, demokratik respublika qurulmasını qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirmişdir. 1918-ci il mayın 28-də Tiflisdə qəbul edilmiş «İstiqlal Bəyannaməsi»ndən - «Əqdnamə»dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirmiş, onu heç vaxt ölməyə qoymamışdır. XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarmışdır. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görmüş, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etmişdir. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoymuşdur.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoymuşdur. Xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı bu şərəfli tarixi - 28 Mayı Respublika Günü kimi qeyd edir.

...Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə mayın 27-də ziyarət etmişdir.

Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı abidənin önünə əklil qoymuşdur. Azərbaycan Respublikasının dövlət himni səsləndirilmişdir.

Həmin gün «Buta» sarayında Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak etmiş və geniş nitq söyləmişdir.

**rəsmi xronika**

## «Gələcəyə baxış» Azərbaycan-ABŞ Forumu işə başlamışdır

Mayın 29-da Bakıda «Gələcəyə baxış» Azərbaycan-ABŞ Forumu işə başlamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılışında iştirak etmiş və nitq söyləmişdir. Sonra Azərbaycanla bağlı qısa film nümayiş olunmuşdur. Forum işini «Azərbaycan-ABŞ münasibətləri: Gələcəyə birgə baxış» mövzusunda plenar sessiya ilə davam etdirmişdir.

## AŞPA ilə əməkdaşlığa dair məsələlər müzakirə edilmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Avropa Şurası Parlament Assambleyasının (AŞPA) prezidenti Jan-Klod Minyonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Dövlətimizin başçısı Azərbaycan ilə AŞPA arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq qarşılıqlı səfərlərin və görüşlərin əlaqələrimizin genişlənməsi işində rolunu qeyd etmişdir. Prezident İlham Əliyev Jan-Klod Minyonun ölkəmizə səfərinin əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminliyini bildirmişdir.

Avropa Şurası Parlament Assambleyasının prezidenti Jan-Klod Minyon Azərbaycana ikinci dəfə səfər etməsindən məmnunluq hissi keçirdiyini vurğulayaraq ölkəmizdə sürətli inkişaf prosesinin şahidi olduğunu söyləmiş, Azərbaycanın iqtisadi və digər sahələrdə qazandığı uğurların önəmini diqqətə çatdırmışdır. Qonaq səfərinin əsas məqsədlərindən birinin Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə qarşıdan gələn sədrliyinə hazırlıq prosesi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsinin aparılmasından ibarət olduğunu demişdir. Görüşdə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlığa dair məsələlər müzakirə olunmuşdur.

# Buzovna-Mərdəkan-Qala yolu istifadəyə verilmişdir

## *Prezident İlham Əliyev yolun açılışında iştirak etmişdir*



İki yüz min nəfərə yaxın əhalinin yaşadığı Zabrat, Maştağa, Pirşağı, Kürdəxanı, Buzovna, Bilgəh qəsəbələrini Bakı şəhəri ilə birləşdirən Zabrat-Maştağa-Buzovna və Zabrat-Kürdəxanı-Pirşağı avtomobil yollarının yenidən qurulması üçün dövlətimizin başçısının ötən ilin oktyabrında imzaladığı sərəncama əsasən, Prezidentin Ehtiyat Fondundan 5 milyon manat vəsait ayrılmışdır. Artıq bu istiqamətdə işlər başa çatdırılmış və may ayının 26-da Prezident İlham Əliyevin iştirakı ilə yolun açılışı olmuşdur.

Dövlətimizin başçısı Buzovna-Mərdəkan-Qala yolunun texniki göstəricilərini əks etdirən stendə baxmışdır. Nəqliyyat naziri Ziya Məmmədov məlumat vermişdir ki, eni 22 metr olan yolun ümumi uzunluğu 12 kilometrə yaxındır. Yol ən müasir tələblər səviyyəsində inşa olunmuşdur. Dördzolaqlı yolun inşası zamanı bütün infrastruktur yenilənmiş, müasir işıqlandırma sistemi qurulmuş, yol boyu 3 qovşaq tikilmişdir. Bakıətrafı kənd və qəsəbələrin yollarının tamamilə yenidən qurulması, ilk növbədə, əhalinin sosial məsələlərinin həlli baxımından önəmlidir.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsmiş və yeni yolda avtomobili idarə etmişdir. Sonra ölkə başçısı Buzovna-Mərdəkan-Qala yolunun əvvəlki vəziyyətini, tikinti zamanı və hazırkı vəziyyətini əks etdirən fotostendə baxmışdır. Dövlətimizin başçısına yol boyu quraşdırılan müasir işıqforlar barədə də məlumat verilmişdir.

# Azərbaycan ilə Avropa Birliyi arasında səmərəli əməkdaşlığın real nəticələrindən biri

## *May ayının 29-da «Kompüter əsaslı audit sistemi sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstəyin göstərilməsi» Tvinninq layihəsinin başa çatdırılmasına həsr olunmuş təqdimat mərasimi keçirilmişdir*

Tədbirdə Azərbaycanın dövlət qurumlarının, Avropa İttifaqının, BMT-nin, Dünya Bankının, Beynəlxalq Maliyyə Korporasiyasının respublikamızdakı nümayəndələri iştirak etmişlər. Təqdimat mərasimini açan Azərbaycan Respublikasının vergilər naziri Fazil Məmmədov ölkəmizin vergi sisteminin inkişafı üçün ən mühüm layihələrdən biri olan «E-audit» Tvinninq layihəsinin əhəmiyyətindən danışmışdır: «Bu gün biz Azərbaycanın vergi sisteminin inkişafı üçün ən mühüm layihələrdən biri olan «E-audit» Tvinninq layihəsinin başa çatdırılması və elektron auditin tətbiqinin ilkin nəticələrinin təqdimat mərasiminə toplaşmışıq. İlk növbədə, mən bu layihənin uğurla başa çatmasında böyük əməyi olan Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir cənab Roland Kobiaya və Niderland Krallığının səfiri cənab Arien Uijterlindeyə göstərdikləri dəstəyə və diqqətə görə öz minnətdarlığımı bildirmək istərdim. Hesab edirəm ki, bu layihə Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən modernizasiya siyasətinin tərkib hissəsi olmaqla Azərbaycan və Avropa İttifaqı arasında olan səmərəli əməkdaşlığın real nəticələrindən biridir.

Məlum olduğu kimi, Vergilər Nazirliyi vergi qanunvericiliyinin və inzibatçılığının müasir tələblər səviyyəsində qurulması üçün daim dünyada mövcud olan qabaqcıl beynəlxalq təcrübələri öyrənib Azərbaycan reallıqlarına daha uyğun olanlarını tətbiq etməyə çalışır və öz fəaliyyətində müasir informasiya texnologiyalarından geniş istifadə edir. Son illər bu məqsədlə bir sıra iri layihələr, o cümlədən AVİS, elektron bəyannamələr, ƏDV depozit hesabları, elektron hesab-fakturalar, elektron qeydiyyat və mobil imza kimi texnoloji tutumlu layihələr həyata keçirilmişdir.

Müasir vergi idarəetmə sistemi vergi ödəyiciləri ilə birbaşa ünsiyyətin minimuma endirilməsi, xidmətlərin çoxunun elektron variantda təqdim edilməsi, vergilərin könüllü ödənilməsi səviyyəsinin artırılması ilə yanaşı, vergi nəzarətinin gücləndirilməsini də tələb edir. Təbiidir ki, vergi inzibatçılığının bütün sahələrində olduğu kimi, vergi nəzarəti sahəsində də modernləşdirmə aparılmalıdır və bu zaman müasir informasiya texnologiyalarının tətbiqi və vergi orqanı əməkdaşlarının peşəkar biliklərinin artırılması ön plana çıxır. Vergilər Nazirliyi artıq kifayət qədər əhatəli məlumat bazasına malikdir və nazirlikdə elmi əsaslara söykənən intellektual təhlil texnologiyalarının tətbiqi üçün lazımi əsaslar yaradılmışdır.

Bütün bunlar nəzərə alınmaqla, üç il bundan əvvəl müasir tendensiyaları və Azərbaycanda «E-hökumət» Dövlət Proqramının başlıca istiqamətlərini əsas tutaraq, elektron auditin tətbiqi üçün hazırlıq işlərinə başlanılmışdır. Xatırladım ki, hazırlanmış layihə üzrə 2010-cu ilin may ayında tender keçirilmiş, Avropa İttifaqı tərəfindən müvafiq maliyyə resursları ayrılmışdır.

**Davamı 2-ci səhifədə**

3 Türkiyə Azərbaycanla vergi sahəsində əməkdaşlığa böyük əhəmiyyət verir

4 Vergi borclarının alınması sahəsində yeniliklər

5 Yeni inzibatçılıq qaydaları ikiqat vergitutma sahəsində problemləri aradan qaldıracaq

8 Velosiped yarışları Azərbaycanı bir daha dünyaya tanıtdı...

# Azərbaycan ilə Avropa Birliyi arasında səmərəli əməkdaşlığın real nəticələrindən biri

Əvvəli 1-ci səhifədə

«E-audit «Tvininnq layihəsinin tərəfdaşı kimi Niderland Krallığının Vergi Administrasiyası seçilmişdir və 2011-ci ilin mart ayından layihənin icrasına başlanılmışdır.

Elektron auditin tətbiqi üçün müvafiq hüquqi bazanın yaradılması məqsədilə 2013-cü il yanvarın 1-dən Vergi Məcəlləsinə e-audit proseslərinin hüquqi əsaslarını tənzimləyən 13 yeni maddə daxil edilmişdir. Onlardan biri də banklardan vergi məqsədləri üçün alınan məlumatlarla bağlıdır. Məlum olduğu kimi, dünyanın əksər ölkələrində vergi orqanları tərəfindən əsaslandırılmaqla belə məlumatların banklardan alınmasına məhduviyyətlər qoyulmur. Vergi Məcəlləsində edilmiş dəyişikliklər indi bizə də məhkəməyə müraciət etmədən Məcəllədə əks olunan hallarda tələb olunan məlumatların birbaşa banklardan alınmasına imkan verir ki, bu da beynəlxalq standardlara tam uyğundur.

E-auditin hüquqi bazasının yaradılması Azərbaycanda fəaliyyət göstərən müəssisələrin sahə spesifikliyini nəzərə almaqla müvafiq e-audit metodologiyalarının hazırlanmasını tələb etmişdir. Bu sahədə Vergilər Nazirliyinin əməkdaşları tərəfindən bir sıra işlər həyata keçirilmiş, sahələr üzrə audit testləri və e-auditin tətbiqi üçün metodik tövsiyələr hazırlanıb tətbiq edilmişdir.

Nazirlik tərəfindən bu layihəyə hərtərəfli dəstək göstərilmiş, xarici ekspertlər, layihə menecmenti və təlim keçən əməkdaşlar arasında iş birliyi yaradılmışdır. Hesab edirəm ki, layihə çərçivəsində nazirliyin gənc mütəxəssisləri tərəfindən e-audit kimi mürəkkəb bir sahədə müasir nəzəri və praktiki biliklərin qısa müddətdə mənimsənilməsi və uğurla tətbiq edilməsi müsbət qiymətləndirilməlidir və mən bununla bağlı layihə rəhbərlərinin də əməyini xüsusi qeyd etmək istərdim.

Bu gün Azərbaycanda e-auditin tətbiqi sahəsində hələ ilk addımlar atılır, lakin əldə olunmuş nəticələr e-auditin vacibliyini və yüksək səmərəliliyini nümayiş etdirir. Neft, bank və ticarət sektorlarında e-auditin tətbiqinin ilkin nəticələri göstərir ki, vergi orqanları məlumatları müəssisələrdən e-formatda alaraq və vergidənyayınma risklərinin təhlilini avtomatlaşdırılmış qaydada aparmaqla, bir yoxlamaya sərf olunan vaxt və insan resurslarını təxminən 1,5 dəfə azaltmağa nail ola bilmişlər. Vergidənyayınma risklərinin təhlilinin avtomatlaşdırılmış qaydada aparılması, 5 müəssisədə keçirilmiş sınaq-vergi yoxlamalarında hesablanmış verginin yoxlanılmış dövriyyədə xüsusi çəkisi əvvəlki yoxlamalara nisbətən nəzərəçarpacaq dərəcədə artmışdır.

Bütün bunlar bir daha göstərir ki, e-auditin tətbiqi sahəsində görülən işlər davam etdirilməli, tədricən e-auditin hərtərəfli tətbiqinə nail olunmalıdır. Bizim əsas məqsədimiz vergi intizamının gücləndirilməsi, vergidən yayınan vergi ödəyicilərinin qarşısında ciddi baryerlər qoyulması və vergidənyayınma hallarının tam aşkar olunaraq dövlət büdcəsinə vergi daxilolmalarının artırılmasıdır.

Sonda bir daha hamınıza bu tədbirə qatıldığınız üçün təşəkkürümü bildirirəm və Azərbaycanda elektron auditin tətbiqi sahəsində ilk mühüm Tvinninq layihəsinin başa çatdırılması münasibətilə layihə tərəfdaşlarımızı və layihəyə cəlb edilmiş heyəti təbrik edirəm. Əminəm ki, elektron auditin hərtərəfli tətbiqinə nail olunması cənab Prezident İlham Əliyevin ölkəmizdə elektron hökumətin qurulması istiqamətində apardığı siyasətə dəyərli bir töhfə olacaqdır.

### Azərbaycanın vergi sistemi müasir texnologiyalara əsaslanan inkişaf mərhələsindədir

Tədbirdə çıxış edən Avropa Birliyinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Roland Kobia Azərbaycanın vergi sisteminin müasir texnologiyalara əsaslanan inkişaf mərhələsinə çıxdığını qeyd etdi, yeni texnologiyaların ən yaxşı nümunələrindən biri kimi elektron audit sisteminin yaradılmasının əhəmiyyətinə toxundu.



AB-nin Vergilər Nazirliyi ilə sıx əməkdaşlıq etdiyini bildirən cənab Kobia Tvinninq layihəsinin mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırdı. «Böyük perspektivlərə malik bu layihə Azərbaycanda vergi auditi sahəsində inzibatçılığın ən yüksək beynəlxalq standartlara uyğunlaşdırılmasını nəzərdə tutur. Layihə e-auditin tətbiqi sahəsində Avropada ən qabaqcıl təcrübəyə malik ölkələrdən biri olan Niderland Krallığının Vergi və Gömrük Administrasiyası ilə birlikdə reallaşdırılır. Elektron audit sistemi Azərbaycanın vergi sistemini yeni, daha müasir texnologiyalara əsaslanan inkişaf mərhələsinə çıxaracaq və bu sistemin tətbiqi ilə ölkənin vergi xidməti regionun ən müasir audit sistemlərindən birinə malik olacaq. Dörd ildir ki, Azərbaycandayam, bu ölkənin Vergilər Nazirliyinin islahatlara açıq, innovasiyaları tətbiq etmək üçün necə fəal çalışdığının şahidiyəm. Elektron vergi bəyannamələrinin tətbiqinin genişlənməsi, e-terminalların sayının artırılması vergi sektorunun çevikliyini göstərir. Azərbaycanın vergi sisteminin islahatların davamlılığı şəraitində daha da inkişaf edəcəyinə əminəm».




**Bu gün Azərbaycanda e-auditin tətbiqi sahəsində hələ ilk addımlar atılır, lakin əldə olunmuş nəticələr e-auditin vacibliyini və yüksək səmərəliliyini nümayiş etdirir**

Roland Kobia azad biznesin, investisiya mühitinin təmin olunması sahəsində görülən işlərə də toxunaraq respublikamızın 19 ölkə ilə ikiqat vergitutmanın aradan qaldırılması sahəsində saziş imzalamasının, 6 ölkə ilə razılaşma əldə etməsinin qarşılıqlı sərmayə qoyuluşlarının artmasına töhfə verəcəyinə inandığını qeyd etdi. Bildirdi ki, Dünya Bankının «Doing Business-2013» illik hesabatında Azərbaycanda azad biznes mühitinin yaxşılaşması, sahibkarlıq fəaliyyətinin inkişafı üçün stimullaşdırıcı addımların atılması, rəqabətliliyin möhkəmlənməsi, həmçinin vergi sahəsində həyata keçirilən sistemli islahatlara və digər mühüm tədbirlərə yüksək qiymət verilib. Hazırda Azərbaycanda Rəqabət Məcəlləsinin qəbul olunması nəzərdə tutulur. Bu sənəd sahibkarlığın və azad biznesin daha da canlanmasına kömək edəcək, eləcə də vergi sisteminə öz mühüm təsirini göstərəcək. R.Kobia AB-nin Azərbaycan hökuməti ilə iqtisadi layihələri, o cümlədən vergi sahəsində əməkdaşlığı davam etdirəcəyini vurğuladı.



Niderland Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Arjen Uijterlinde isə elektron auditin yaradılmasında hər iki tərəfdən ən peşəkar ekspertlərin cəlb edildiyini, tvinninq layihəsinin reallaşdırılması sayəsində Azərbaycanın vergi sistemində inzibatçılığın ən yüksək beynəlxalq standartlara uyğunlaşdırılmaqda olduğunu bildirdi: «E-auditin əsas məqsədi odur ki, vergi intizamı artsın, vergidən yayınan vergi ödəyicilərinə qarşı güclü baryer qoyulsun və vergidənyayınma hallarının tam aşkar olunması üçün vergi orqanları üçün müvafiq şərait yaradılsın. Elektron audit sistemi layihəsinin reallaşdırılması Azərbaycanda iri və orta müəssisələrin audit yoxlamaları sahəsində müvafiq strukturların texnoloji, metodik, analitik və insan resursları baxımından təkmilləşdirilməsinə, e-bəyannamələrin tətbiqi ilə yanaşı, müəssisələrdə mühasibat uçotunun elektron formatda aparılmasına və e-auditin tətbiqinə geniş imkan yaradacaq». Arjen Uijterlinde bildirdi ki, Azərbaycanda elektron audit sisteminin inkişafı sahəsində inzibatçılıq keyfiyyətcə yaxşılaşacaq, elektron xidmətlərin tətbiqinin genişləndirilməsi ilə bağlı həyata keçirilən davamlı tədbirlər digər yeni informasiya texnologiyalarının tətbiqinə səbəb olacaq. Yeni elektron xidmətlər vergi xidməti strukturları arasında informasiya mübadiləsini, məlumatların işlənməsini, bəyannamələrin qəbulunu və qeydiyyatını sürətləndirməyə və avtomatlaşdırmağa, sənədlərin sistemdaxili dövriyyəsini tam şəkildə elektron varianta keçirməyə imkan verəcək.

### Vergi sisteminin daha da təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində mühüm addım

Niderland Krallığının Vergi Administrasiyasının Tvinninq layihəsindəki rəhbəri Kaap Snaterse və layihə üzrə rezident məsləhətçi Leendert Kers «Niderland Krallığı Vergi Administrasiyasının Tvinninq layihəsində əməkdaşlığı və Azərbaycanda e-auditin davamlılığına baxışı» mövzusunda birgə təqdimatla çıxış etdilər.



Kaap Snatserse layihə çərçivəsində Niderland Krallığının Vergi Administrasiyasının Azərbaycanın Vergilər Nazirliyi ilə kifayət qədər səmərəli əməkdaşlıq münasibətləri qurduğunu bildirdi. O, «E-audit» Tvinninq layihəsi üzrə, qrafikə uyğun olaraq, son iki il ərzində həyata keçirilən layihələr və təlim kursları, qarşılıqlı səfərlər, hazırlanmış əyani tədris vəsaitləri və texniki proqramlar barədə ətraflı məlumat verdi. Bildirdi ki, AB-nin maliyyə dəstəyi ilə gerçəkləşdirilən layihə Azərbaycanın vergi sisteminin daha da təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində mühüm addımlardan olmuşdur. Niderland Krallığı və Azərbaycanın vergi orqanları rəhbərlərinin 2011-ci ilin aprelində keçirilmiş ilk işgüzar toplantısında layihənin icra mexanizmləri, habelə birgə fəaliyyət istiqamətləri müəyyənləşdirilmiş, hər bir mərhələ üçün nəzərdə tutulan tədbirlər uğurla gerçəkləşdirilmiş, maksimum səmərəli nəticələr əldə olunmuşdur.

Kaap Snatserse layihə çərçivəsində Niderland Krallığının Vergi Administrasiyasının e-audit sahəsində təcrübəsinin, burada istifadə edilən informasiya texnologiyaları sistemlərinin, müasir audit modelləri və metodlarının Vergilər Nazirliyinin bir qrup əməkdaşı tərəfindən öyrənildiyini də diqqətə çatdırdı, tədris kurslarının əhəmiyyətindən söz açdı. Layihə rəhbəri Azərbaycanın vergi xidməti əməkdaşlarının Niderland, Avstriya və Estoniyada təşkil olunmuş təlim kurslarında yüksək fəallıq nümayiş etdirdiklərini, zəruri bilik və vərdişlərə yiyələndiklərini razılıqla vurğuladı.

Bildirildi ki, layihə çərçivəsində audit üzrə Azərbaycanca-ingiliscə lüğət, e-auditin tətbiqi, habelə təlimçilər üçün təlimlər, treninq materiallarının kompakt diskləri, tövsiyə xarakterli hesabatlar, vergi auditinin keçirilməsi barədə kitab hazırlanmışdır.

Layihə üzrə rezident məsləhətçi Leendert Kers təqdimatın davamı olaraq öz ölkəsinin Avropada ilk dəfə 1990-cı ildən e-audit texnologiyasının tətbiqinə başladığını, ötən illərdə bu sahədə zəngin təcrübə və biliklər əldə etdiyini diqqətə çatdırdı.

Azərbaycanın e-audit layihəsinin tətbiqinə ciddi maraq və səy göstərdiyini diqqətə çəkən ekspert Vergilər Nazirliyinin innovativ yeniliklərə meyilli dövlət qurumu olduğunu vurğuladı: «Vergilər Nazirliyinin rəhbərliyi layihənin icrasına ilk gündən səmimi dəstək vermiş, fəallıq göstərmişdir. Bunun nəticəsidir ki, nazirlik qısa zamanda bu sahədə böyük nəticələr əldə etmişdir. Bütün bunlar deməyə



əsas verir ki, Azərbaycan yaxın zamanlarda e-audit layihəsinin reallaşdırıldığı 10 Avropa ölkəsinin sıralarına daxil olacaq. Bu sistemin tətbiqi vergiyə aid məlumatlara daha rahat və operativ çıxışı təmin edəcək, vergidən yayınma hallarının qarşısını alacaq, səyyar vergi yoxlamalarına sərf edilən vaxtı azaldacaq, şəffaflığı artıracaqdır».

### Azərbaycanda e-audit sisteminin yaradılması sahəsində görülən işlərin ilk nəticələri

Tvinninq layihəsinin Vergilər Nazirliyi tərəfindən rəhbəri, vergilər nazirinin müşaviri Asəf Əsədov təqdimatla çıxış edərək bildirdi ki, 2 il bundan əvvəl start verilən «E-audit» Tvinninq layihəsi vergi sisteminin inkişafı üçün ən mühüm Layihələrdən biri hesab olunur. Müasir zamanda informasiya texnologiyalarının sürətli inkişafı ilə eləqədar və dünyada əksər ölkələrin büdcə problemlərinin həlli üçün maliyyə, o cümlədən vergi risklərinin minimallaşdırılması tələblərinə cavab olaraq vergi orqanları və vergi ödəyiciləri arasında münasibətlər və informasiya mübadiləsi məsələləri önə çıxır. Müasir informasiya sistemlərinə əsaslanan e-audit xüsusi kompüter proqram təminatları vasitəsilə vergi ödəyicisinin mühasibat informasiya sistemində saxlanılan verilənlər bazasına çıxış əldə etməklə elektron əməliyyatların (və onların mənbələrinin) tamlığının və düzgünlüyünün audit testləri və üsulları vasitəsilə yoxlanması və təhlil edilməsidir. Qeyd olundu ki, «E-audit» Tvinninq layihəsinin birinci komponentinin əsas məqsədi - e-audit üzrə hüquqi baza hazırlanıb, Niderland Krallığının Vergi Administrasiyasının e-audit sahəsində təcrübəsi, istifadə edilən İT sistemləri, müasir audit modelləri və metodları Vergilər Nazirliyinin bir qrup əməkdaşı tərəfindən ətraflı qaydada öyrənilib, bu məqsədlə işçi səfərləri, seminarlar təşkil olunub. Ötən dövr ərzində e-audit üzrə proqram təminatı seçilib, müasir İT avadanlığı və proqram təminatı alınıb və təlim keçən auditorlara verilib. E-auditin tətbiqi üçün tələb olunan risklərin idarəedilməsi sisteminin, məlumat və bilik bazasının konseptual modeli və arxitekturası hazırlanıb və VN-in İT sahəsində Strateji Planına (2013-2015-ci illər) daxil edilib.

A.Əsədov bildirdi ki, Vergi Məcəlləsində dəyişikliklərin edilməsi respublikamızda e-auditin hüquqi əsaslarını yaradıb. Azərbaycanda e-auditin hüquqi bazası Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, 2013-cü ilin yanvar ayından qüvvəyə minmişdir. E-audit Vergi Məcəlləsinin 13 yeni maddəsi ilə tənzimlənir. Məcəllənin 16.1.6-cı və 23.1.2-ci maddələrinə əsasən, e-audit mühasibat işləri vergi ödəyicilərində e-formatda aparılır. E-audit, ilk növbədə, neft sektorunda fəaliyyət göstərən beynəlxalq şirkətlər, müxtəlif ölkələrdə çoxsaylı filialları və əməliyyatları olan holdinq tipli yerli müəssisə və şirkətlər, e-kassa aparatları və POS-terminallar vasitəsilə çoxlu sayda e-əməliyyatlar aparan iri və orta ticarət və xidmət obyektlərində aparılır. Bundan başqa, e-auditin bank, sığorta, lizinq, telekommunikasiya, e-ticarət üzrə ixtisaslaşmış şirkətlərdə, prosessinq mərkəzləri və kommunal xidmətlər göstərən müəssisələrdə aparılması əsasdır.

E-auditin vergi orqanları və vergi ödəyiciləri üçün üstünlüklərindən danışan A.Əsədov qeyd etdi ki, bu sistem həm vergi orqanları, həm də vergi ödəyiciləri üçün səyyar vergi yoxlamaları ilə bağlı vaxt sərfiyyatını dəfələrlə azaldır. Vergi orqanları distant e-audit vasitəsilə çoxlu sayda vergi ödəyicilərini eyni zamanda yoxlaya bilir və səyyar vergi yoxlamalarını ancaq riskli vergi ödəyicilərində davam etdirirlər. İntizamlı vergi ödəyicilərinin ictimaiyyət arasında



kommersiya baxımından nüfuzu artır, e-audit texnologiyalarını tətbiq etmiş vergi orqanları vergidən yayınan bütün vergi ödəyicilərinin aşkar edilməsi üzrə böyük imkanlar qazanırlar, nəticədə vergi intizamı artır, büdcə daxilolmalarının artımı könüllü əməletmə dərəcəsinin sürətli şəkildə yüksəlməsi və vergi inzibatçılığının cari xərclərinin azalması nəticəsində təmin olunur.

Bildirildi ki, audit texnologiyalarının tətbiq edilməsi məqsədilə Vergilər Nazirliyinin 10 nəfər mütəxəssisi üçün bir il ərzində 3 blokdan ibarət 8 müxtəlif kurs üzrə treninq proqramı həyata keçirilib. Bütün kurslar ingilis dilində aparılıb və təlim materialları treninq proqramının iştirakçılarına verilib. Bununla yanaşı, həmin əməkdaşlar təlimçi kimi də xüsusi hazırlaşdırılıblar və hazırda onlar 50 nəfər auditor üçün təlim proqramını başa çatdırırlar. Bundan başqa, Tvinninq lahiyəsinin treninq proqramının məzunları olan e-auditorlar tərəfindən neft, bank və ticarət sahələrində e-audit texnologiyaları müasir audit yanaşması ilə birgə tətbiq edilir və ilkin nəticələr çox uğurludur: insan və vaxt sərfiyyatı dəfələrlə azalıb, vergidənyayınma hallarının aşkarlanması potensialı ciddi şəkildə gücləndirilib. Əldə olunmuş nəticələr göstərir ki, Azərbaycanda audit sahəsində müasir e-audit texnologiyalarına əsaslanan audit sisteminin modernləşdirilməsi uğurla həyata keçirilir. Bu sistemə keçid o qədər də asan deyil, düzgün metodologiyaların və təlim strategiyasının seçilməsi, onların inkişaf etdirilməsini, auditorlar tərəfindən yeni nəzəri və praktiki biliklərin əldə edilməsi, qazanılmış biliklərin Azərbaycan şəraitinə uyğun və səmərəli tətbiq olunmasını tələb edir. Müqayisə üçün demək olar ki, dünyada analoji audit platformasında tam şəkildə işləyən vergi orqanlarının sayı 10-dan çox deyil.

A.Əsədov qeyd etdi ki, Azərbaycanın Vergilər Nazirliyi MDB məkanında vergi sahəsində öz lider mövqeyini bir daha sübut edərək, regionda ən müasir və şəffaf elektron audit sisteminin tətbiqinə başlayıb, vergi yoxlamalarında elektron məlumatların alınması və təhlili məqsədilə insan faktoru ilə bağlı səhvlərin, neqativ halların, vaxt itkisinin aradan götürülməsinə və auditin yüksək səmərəsinə nail olunması üçün şərait yaradıb. Neft, bank və ticarət sektorlarında e-auditin tətbiqinin ilkin sınaq nəticələri göstərir ki, vergi orqanları məlumatları müəssisələrdən e-formatda alaraq və ACL proqramı vasitəsilə vergidənyayınma risklərinin təhlilini avtomatlaşdırılmış qaydada apararaq, bir yoxlamaya daha az vaxt və insan resursları sərf edirlər. Neft sektorunda fəaliyyət göstərən xüsusi vergi rejimli müəssisələr üçün hazırlanmış e-audit metodologiyası vasitəsilə bu sektorlarda aparılmış yoxlamalar bütün əməliyyatların təhlilini daha tez (1,5 dəfə) və vergidənyayınma hallarının daha dolğun şəkildə aşkar edilməsinə imkan verir. Ticarət sektoru üzrə satışı NKA ilə həyata keçirən vergi ödəyicilərinin e-audit metodologiyası əsasında sınaq müəssisədə aparılmış audit bu sahədə vergidənyayınma hallarının daha tez (15 gün ərzində) və tam şəkildə aşkar edilməsini nümayiş etdirib.

İlkin sınaq tədbirlərinin mühüm nəticələr verdiyini bildirən A.Əsədov e-auditin geniş miqyasda tətbiqi məqsədilə yeni təlim strategiyası hazırlandığını diqqətə çatdırdı. Qeyd olundu ki, Vergilər Nazirliyinin insan resurslarının peşəkar səviyyəsinin artırılması, müasir tələblərə hərtərəfli cavab verməsi məsələləri ən vacib istiqamətlərdəndir. Bu sahədə yeni Tvinninq layihəsinin hazırlanması ilə bağlı işlər yekunlaşır və gələn ildən insan resurslarının dayanıqlı inkişafı sahəsində həmin layihənin icrasına başlanılacaq.

*Tədbirin sonunda vergilər naziri Fazil Məmmədov yekun nitq söyləmiş və KİV nümayəndələri üçün brifinq keçirmişdir.*

**Elbrus CƏFƏRLİ, Samir MUSTAFAYEV**

# Türkiyə Azərbaycanla vergi sahəsində əməkdaşlığa böyük əhəmiyyət verir



*Türkiyənin Hacettepe Universitetinin professoru Əhməd Burçin Yerelinin «Vergilər» qəzetinə müsahibəsi*

***- Cənab Əhməd Burçin, Türkiyə ilə Azərbaycan arasında vergi sahəsində mövcud əlaqələri necə qiymətləndirərdiniz?***

- Türkiyə ilə Azərbaycan arasında vergi sahəsində çox səmərəli əməkdaşlıq mövcuddur. Qardaş ölkə Azərbaycanın vergi administarsiyası ilə neçə illərdir ki, qarşılıqlı əlaqələr inkişaf edir, hər iki tərəf öz müsbət təcrübələrini bir-biri ilə paylaşır. Azərbaycan Türkiyənin vergi sahəsində keçdiyi yüksək inkişaf yolunu dəyərləndirərək təcrübə mübadiləsinə açıq olduğunu nümayiş etdirir. Hər iki ölkənin vergi administrasiyaları ikitərəfli əlaqələrlə yanaşı, bir sıra beynəlxalq təşkilatlar (ECO, ATAİC, OECD) çərçivəsində də sıx əməkdaşlıq edirlər. Ankaradakı Vergi Mərkəzinin təlim kurslarında Azərbaycanın Vergilər Nazirliyinin əməkdaşları Avropanın qabaqcıl vergi inzibatçılığı təcrübəsini öyrənirlər.

Türkiyə və Azərbaycan elektron xidmətlərlə bağlı da yaxın əməkdaşlıq edir. Son illər elektron bəyannamələr sahəsində qarşılıqlı təcrübə mübadiləsi, e-bəyannamələrin tətbiqinin genişləndirilməsi yolları, vergi ödəyiciləri üçün yeni xidmətlər əməkdaşlığın əsas istiqamətlərini təşkil edir. E-bəyannamələrin tətbiqinin genişləndirilməsi vergilərin asan ödənişi, inzibati metodların azaldılması və şəffaflıq baxımından mühüm əhəmiyyət kəsb edir. Bu məsələdə mühasibatlığın da yeni tələblərə uyğun fəaliyyəti vacibdir.

***- Azərbaycanda vergi inzibatçılığının təkmilləşdirilməsi və digər sahələrdə həyata keçirilən islahatlar barədə qənaətiniz necədir?***

- Azərbaycan elektron xidmətlərin vergi sistemində tətbiqinə geniş yer verməkdədir. Hər iki ölkənin vergi ödəyiciləri hesabatları elektron formada təqdim edirlər. Eyni zamanda, yeni e-xidmətlərin tətbiqinə hazırlıq görülür. «Elektron hökumət» quruculuğu mühasibatın tamamilə bu sistemə uyğunlaşdırılmasını tələb edir. Türkiyədə mühasiblərin 98%-i «e-hökumət» sistemində fəaliyyət göstərə bilirlər. Azərbaycanda da bu istiqamətdə ardıcıl və sistemli işlərin görüldüyünü müşahidə edirik. «E-hökumət» quruculuğu uğurla həyata keçirilsə, vergi sistemində bunun çox böyük nəticələri olacaq.

Yeni xidmətlərlə yanaşı, vergitutma bazasının genişləndirilməsi istiqamətində həyata keçirilən səmərəli tədbirlərin də əhəmiyyəti böyükdür. Azərbaycanın iqtisadi potensialı çox güclüdür və hesab edirəm ki, bu, vergitutma bazasının genişləndirilməsinə imkan yaradır. Son illər Azərbaycanda neftdənkənar sahələrin yüksək inkişafı müşahidə edilir. Artıq qeyri-neft sahələrindən daxil olan vergilərin payının getdikcə artacağı gözlənilir. Onu da deyim ki, Azərbaycanda yaxın illərdə milli gəlirin artımında və əhalinin rifahının inkişafında vergilərin bilvasitə xüsusi payı olacaq.

***- İki ölkə vergi sahəsində əməkdaşlığı daha da inkişaf etdirmək üçün hansı addımlar atmalıdır?***

- Türkiyə vergiyə dair hər mövzuda Azərbaycanla əməkdaşlığa böyük əhəmiyyət verir. Eyni münasibətin Azərbaycanda da olduğunu müşahidə edirəm. Türkiyə və Azərbaycan vergilərin uyğunlaşdırılması sahəsində ciddi işlər görür. Türkiyə hazırda yaxın əməkdaşlıq etdiyi Avropa Birliyi (AB) regionu ölkələrinin vergi sisteminə daha çox inteqrasiya olunmağa çalışır. AB ölkələri ilə xarici ticarətdə, sərmayə qoyuluşlarında və ticarətlə bağlı digər məsələlərdə fərqli cəhətlər çoxdur. Bu fərqlər vergiqoyma baxımından da özünü göstərir. Ona görə də Türkiyə ilə Azərbaycan arasında sərmayə proqramlarında və ticarət əlaqələrində həmin faktorların nəzərə alınması zəruridir. Hesab edirəm ki, Türkiyə ilə Azərbaycan arasında əmək bazarı, sərmayə və mal dövriyyəsi ilə əlaqədar daha sərbəst rejimin tətbiq olunmasına ehtiyac var. Düzdür, mən bu əməliyyatlar zamanı vergilərin, yaxud rüsumların məhdudlaşdırılmasının tərəfdarı deyiləm, amma bəzi sadələşdirmələrin aparılması məqsədəuyğun olardı.

Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığının gücləndirilməsi üçün inkişaf agentliklərinin yaradılması olduqca vacibdir. Regionlardakı iqtisadi potensial, resurslar barədə sərmayəçilərə lazımi bilgilər vermək, onları bu sahələrə təşviq etmək üçün inkişaf agentliklərinə geniş meydan verilməlidir. Regional səviyyədə təşkilatlanan bu agentliklər bölgənin istehsal potensialının planlaşdırılmasında, hansı sahələrin daha cəlbedici olması barədə məlumatların hazırlanmasında, təşviqedici və dəstəkləyici tədbirlərin görülməsində, eyni zamanda bölgələrə xarici və yerli maliyyənin cəlb olunmasında agentliklər böyük əhəmiyyət kəsb edir. Türkiyədə bu qurumların fəaliyyəti kifayət qədər böyükdür. Onlar artıq xarici sərmayəçilər, beynəlxalq kredit konsorsiumları ilə sıx əməkdaşlıq qurub, maliyyə fondlarını regional layihələrə cəlb ediblər. Bu mənada, Türkiyənin regional inkişaf agentliklərinin təcrübəsindən faydalanmaq Azərbaycan üçün əhəmiyyətli olardı.

Avropada və Türkiyədə vergi statistikası deyilən bir şey var. Bu, vergi planlaşdırması və vergi siyasəti baxımından mühüm əhəmiyyət kəsb edir. Hesab edirəm ki, Azərbaycanda da müntəzəm olaraq vergi statistikalarının aparılmasına ehtiyac var. Bu yalnız gələcəyin vergi siyasəti baxımından deyil, həm də mövcud sosial-iqtisadi vəziyyətin təhlili baxımından da perspektivlidir. Türkiyənin vergi sistemindəki vergi informasiyaları resursları bazası vasitəsilə istənilən dövrün nəticələrini elmi səviyyədə qiymətləndirmək mümkündür. Hər iki ölkənin elmi dairələrinin bu istiqamətdə əlaqələri, xüsusilə də Azərbaycan Dövlət İqtisad Universiteti ilə Hacettepe Universitetinin bu sahədə əməkdaşlığa başlaması yerinə düşərdi. Əməkdaşlığın Türkiyənin Gəlirlər İdarəsi ilə Azərbaycanın Vergilər Nazırlıyi səviyyəsində qurulmasına da ehtiyac görürəm.

Azərbaycan-Türkiyə əlaqələrində vergidənyayınmaya qarşı birgə mübarizənin, vergi nəzarəti sahəsində əməkdaşlığın gücləndirilməsi də zəruridir. Hər iki ölkənin vergi orqanları vergidənyayınma sahəsində ortaq fəaliyyət göstərməlidir. Ortaq vergi kəşfiyyatının olması qeyri-qanuni maliyyə hərəkətlərinin, vergidənyayınmanın qarşısını almağa kömək edə bilər.

***- Azərbaycandakı vergi ödəyiciləri sırasında Türkiyə şirkətlərinin də payı kifayət qədərdir. Son illər respublikamızda iqtisadi fəaliyyətlər, o cümlədən vergi ilə bağlı stimullaşdırıcı tədbirlər görülməkdədir. Bu, Türkiyə sərmayəçilərinin fəaliyyəti üçün hansı əlavə imkanlar aça bilər?***

- Türkiyənin Azərbaycan iqtisadiyyatına qoyduğu sərmayələrin həcmi çox böyükdür. Fəaliyyətlərin daha da genişlənməsi, sərmayələrin həcminin artırılması üçün xüsusi təşviqedici tədbirlərin görülməsi çox əhəmiyyətlidir. Son illərdə Azərbaycan hökumətinin bu istiqamətdə atdığı addımları təqdir etmək lazımdır. Hökumət sənaye texnoparklarının yaradılması ilə belə təşviqedici addımlar atıb, Türkiyənin nüfuzli iş adamlar texnopark layihələrinə böyük maraq göstərirlər və irihəcmli investisiyalar qoymaq niyyətindədirlər. Hazırda investorlar paytaxtla yanaşı, regionlarda da texnoparkların yaradılması üçün səmərəli təkliflər verirlər. Ötən illərdə Azərbaycanın informasiya-kommunikasiya texnologiyaları (İKT) sektorunda əsas sərmayədar kimi özlərini təsdiq etmiş Türkiyə şirkətləri İKT-nin yeni inkişaf planını nəzərə alaraq, fəallıqlarını artırmaqdadır. İndi iri şirkətlərlə yanaşı, tanınmış firmalar texnologiyaların inkişaf etdirilməsi üçün bölgələrdəki layihələrə cəlb olunmağı düşünürlər. Emal sənayesi və informasiya-kommunikasiya texnologiyaları sahəsinə yönəldilən sərmayələrin axınını sürətləndirmək üçün güzəştli maliyyə-vergi rejiminin dəstəklənməsini prioritet hesab edirəm. Azad iqtisadi zonaların yaradılması da türk iş adamlarının hədəfləri sırasındadır. Bu cür layihələr həyata keçirilərkən xidmət və istehsal təyinatlı obyektlərin tikintisi üçün vergi və gömrük güzəştlərinin tətbiq olunması, istehsal və investisiya təyinatlı avadanlıqların, malların ölkəyə gətirilməsinə güzəştli gömrük rüsumlarının tətbiq olunması müsbət nəticələr verir. Azərbaycanda kompleks sənaye zonalarının, sağlamlıq, turizm bölgələrinin, iri əkinçilik və fermer təsərrüfatlarının inkişaf etdirilməsi iqtisadiyyatın inkişafı üçün böyük imkanlar açır.

***- Azərbaycan şirkətlərinin də Türkiyə iqtisadiyyatına qoyduqları sərmayələrin həcmi artır və onların Türkiyənin vergi daxilolmalarında payı az deyil...***

- Elədir. Yaxın qonşu dövlətlər içərisində ən çox vergi ödəyən şirkətlərin sırasında Azərbaycan şirkətlərini göstərmək olar. Bir neçə il əvvəl türk iş adamlarının Azərbaycan iqtisadiyyatına sərmayə qoyduqları müşahidə olunurdusa, bu gün artıq Azərbaycan şirkətləri Türkiyə iqtisadiyyatına böyük sərmayələr qoyurlar. Hazırda Türkiyədə çalışan Ukrayna, Moldova, Macarıstan, Rumıniya, Gürcüstan və digər ölkələrin sərmayəciləri arasında Azərbaycanın mövqeyi xeyli yüksəkdir. Türkiyədə Azərbaycan sərmayələrinin həcmi 3 milyard dolları keçib və sizin şirkətlər ölkəmizdə xarici vergi ödəyicisilərinin ilk beşliyinə daxildir.

**Elbrus CƏFƏRLİ**

# ASAN xidmətin əhatə dairəsi genişlənir

*May ayında Sumqayıtda və Bakı şəhərinin Xətai rayonunda növbəti «ASAN xidmət» mərkəzlərinin açılışı olmuşdur. Bu mərkəzlər Xızı, Şabran, Siyəzən, Abşeronun bir sıra rayonlarının, o cümlədən Nizami və Suraxanı rayonlarının əhalisinə də xidmət göstərəcəklər.*

Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov jurnalistlərə açıqlamasında bildirib ki, ölkə Prezidentinin tapşırığına əsasən, bu ilin yay aylarına qədər Bakı şəhərinin bütün əhalisi «ASAN xidmət» mərkəzlərindən bəhrələnə biləcəklər. Mərkəzlərdə 9 dövlət orqanı - Ədliyyə, Daxili İşlər, Vergilər nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Dövlət Miqrasiya Xidməti, Dövlət Sosial Müdafiə Fondu və Milli Arxiv İdarəsi tərəfindən 25 hüquqi xidmət və 22 funksional yardımçı xidmət göstərilir».

Avqust ayında Gəncə şəhərində «ASAN xidmət» Mərkəzinin açılması nəzərdə tutulur. Həmin mərkəz Gəncə və ətraf rayonların əhalisinə xidmət göstərəcək.

«ASAN xidmət» mərkəzlərinin əsas prinsipləri operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış qaydalarına nəzarət və rahatlıqdır. Mərkəzlər internetə daim açıq olan kompüterlərlə təchiz edilmiş və vətəndaşların hər növ elektron xidmətlərdən yararlanması üçün şərait yaradılmışdır. «ASAN xidmət» mərkəzlərində vətəndaşların gözləməsi və vaxtını səmərəli keçirməsi üçün funksional yardımçı xidmətlər - bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, uşaq əyləncə guşəsi, internet-kafe, poçt şöbələri, fotostudiya fəaliyyət göstərir. Burada ölkədə ilk dəfə tətbiq olunan elektron ərizədoldurma aparatı yerləşdirilmişdir. Mərkəzlərdə, həmçinin, vətəndaşların qəbulunun elektron növbə əsasında həyata keçirilməsi üçün ən müasir avadanlıq quraşdırılmışdır. Elektron lövhələr və işarələr vətəndaşların məlumat əldə etməsini xeyli asanlaşdıracaqdır.

Mərkəzlərdə yerləşdirilən xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkün olacaqdır. «Çağrı» xidməti (108) vasitəsilə vətəndaşlar mərkəzə gəlmədən internet və ya telefonla bütün xidmət növləri, tələb edilən sənədlər barədə məlumat ala və növbə tuta bilərlər. Korrupsiya hallarının qarşısının alınması, şəffaflığın təmin edilməsi məqsədilə mərkəzlərdə xidmət prosesi fasiləsiz videokameralarla qeydiyyata alınacaqdır. Mərkəzlərdə həmçinin rüsumların məbləğlərini əks etdirən rüsum tablosu da quraşdırılmışdır. Xidmət prosesi müasir İP telefon və İP şəbəkə sistemi ilə təmin edilmişdir. Xidmətin «asan.gov.az» internet saytı vasitəsilə vətəndaşlar üçün onlayn növbəyə yazılmaq, elektron ərizə doldurmaq, sənədləri müvafiq orqanlara elektron qaydada göndərmək və digər imkanlar yaradılmışdır. Xidmət mərkəzlərində əlillər üçün də zəruri şərait yaradılmışdır. Binaların girişində onlar üçün xüsusi lift quraşdırılmışdır. Gözdən əlillərin sərbəst hərəkəti üçün hər bir mərtəbənin döşəməsinə xüsusi örtüklər vurulmuş və lövhələr onların oxuya biləcəkləri müvafiq hərflərlə hazırlanmışdır.

«ASAN xidmət» mərkəzi tərəfindən yaxın vaxtlarda vətəndaşlara səyyar xidmətlər də göstərilməyə başlanılacaqdır. «ASAN xidmət»in avtobusunda səyyar xidmət konsepsiyasının əsas komponentləri - alternativ enerji mənbələrindən istifadə olunması, nağdsız hesablaşmaların və şəffaflığın təmin edilməsi, vətəndaşların dövlət orqanlarına etimadının gücləndirilməsi əksini tapmışdır. Bölgələrdə səyyar fəaliyyət göstərmək üçün «ASAN xidmət»in şəxsi heyəti və hərəkət vasitələri şimal və cənub qruplarına bölünəcəkdir. Səyyar qrupların hər biri şəhər və rayonlarda 15 gündən bir ayadək vətəndaşlara xidmət göstərəcəkdir. Agentliyin xüsusi sifarişi əsasında Türkiyədə yığılan «Mercedes» markalı avtobus keyfiyyətli xidmətin göstərilməsi üçün yüksək zövqlə hazırlanmışdır. İş prosesində sərf olunacaq elektrik enerjisini avtobusun üzərində quraşdırılan günəş panelləri təmin edəcək. Avtobusun üzərində quraşdırılmış böyük monitorda rüsumlar, növbələr, müxtəlif görüntülər, xidmətlər barədə məlumatlar nümayiş etdiriləcəkdir. Avtobusda «ASAN xidmət»in 11 əməkdaşının eyni vaxtda vətəndaşlara xidmət göstərməsi üçün hər cür şərait var.

**Arzu İBRAHİMOVA**



Akif Musayev
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar
Baş İdarəsinin rəisi

Rakurs

## Vergitutmada ədalətlilik

Azərbaycan Respublikası Konstitusiyasına əsasən, normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalıdır. Konstitusiyaya uyğun olaraq ədalətlilik prinsipi Azərbaycan Respublikasının bütün qanunvericilik aktlarının, o cümlədən vergi qanunvericiliyinin əsas prinsiplərindən biri kimi müəyyən olunmuşdur. Belə ki, Vergi Məcəlləsinin 3.1-ci maddəsində göstərilir ki, vergilər haqqında qanunvericilik vergitutmanın ümumi, bərabər və ədalətli olmasına əsaslanmalıdır.

Nəzəri olaraq vergitutmada ədalətlilik prinsipinin təmin edilməsi məsələsinə iki aspektdən - hüquqi və iqtisadi aspektlərdən yanaşılır. Hüquqi baxımdan, vergitutmada ədalətlilik dedikdə, vergi münasibətlərinin bütün iştirakçılarının formal bərabərləyinin təmin edilməsi nəzərdə tutulur. İqtisadi nöqteyi nəzərdən yanaşdıqda isə vergitutmada ədalətliliyə əməl olunması, vergilərin ödənilməsində vergi ödəyicilərinin real ödəmə qabiliyyətlərinin nəzərə alınması deməkdir.

*Vergi ödəmək adətinin möhkəmləndirilməsinin ən əsas amillərindən biri də vergitutmada ədalətlilik prinsipinə əməl olunmasıdır*

İqtisadi mahiyyətinə görə vergitutmada ədalətliliyin təmin edilməsi ən əsası ondan irəli gəlir ki, dövlət xəzinəsinə gəlirlərin vergi şəklində toplanılması və yenidən bölüşdürülməsi prosesində əhalinin müəyyən hissəsinin (gəlir əldə edənlərin) üzərinə dövlət xəzinəsinə ödəmələrin aparılması öhdəliyi qoyulur, digər hissəsinə isə həmin ödəmələrdən bəhrələnmək imkanı verilir. Deməк olar ki, dövlətçiliyin yarandığı ilk vaxtlardan başlayaraq hakimiyyət dairələri tərəfindən müxtəlif gəlir mənbələri, əsasən, vergi yığımları hesabına dövlətin sosial xərclərinin artırılması üçün tədbirlər görülməyə başlanılmışdır. Bunun da vergi ödəyənlər tərəfindən normal hal kimi qəbul olunması dövlətə ödənişlər etmək adətinin formalaşmasında və vergilərin ödənilməsinin vacibliyinin dərk edilməsində mühüm rol oynamışdır. Vergi ödəmək adətinin möhkəmləndirilməsinin ən əsas amillərindən biri də vergitutmada ədalətlilik prinsipinə əməl olunmasıdır.

Ənənəvi olaraq vergidə ədalətlilik prinsipi öz təzahürünü vergidən azad edilən minimum gəlir məbləğinin qanunvericiliklə müəyyən edilməsində tapmışdır. Gəlirin vergidən azad edilən minimum məbləği əsasən vergi ödəyicisinin minimum yaşayış tələblərini ödəyən məbləğə bərabər tutulur. Bir çox hallarda gəlirin vergiyə cəlb olunmayan məbləğini gəlirin toxunulmaz hissəsi də adlandırırlar. Demək olar ki, gəlir vergisi tətbiq edən Avropa ölkələrinin əksəriyyətində, ABŞ-da, Rusiyada gəlirin vergiyə cəlb edilməyən toxunulmaz hissəsi qanunvericiliklə müəyyən olunmuşdur. Azərbaycan Respublikasının Vergi Məcəlləsində muzdlu işlə əlaqədar aylıq gəliri 200 manatadək olan fiziki şəxslər üçün 125 manat (əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumu) miqdarında vergiyə cəlb olunmayan məbləğ müəyyən edilmişdir ki, bunu da gəlirin toxunulmaz hissəsi kimi adlandırmaq olar.

Vergitutmada ədalətliliyin təmin olunmasının ən vacib əlamətlərindən biri də vergilərin vergi ödəyicisinin iqtisadi imkanlarına mütənasib qaydada müəyyən olunmasıdır. Hələ qədim Misirdə vergi ödəmələri torpaq sahəsinin ölçüsündən, mal-qaranın sayından və əkinin sahəsindən asılı olaraq müəyyən edilirdi. Qədim Romada da vergitutma ədalətli olsun deyə, verginin əhalinin əmlak vəziyyətinə uyğun şəkildə yığılması barədə normalar müəyyən edilmişdi. Məşhur iqtisadçı və filosof Adam Smit vergi ədalətliliyi barədə demişdir ki, hakimiyyətin fəaliyyətinin dəstəklənməsi üçün aparılan ödəmələr ödəyicilərin iqtisadi imkanlarına mütənasib olmalı və müxtəlif gəliri olan şəxslər dövlət xəzinəsinə ödəmələri eyni faiz dərəcəsi ilə aparmalıdırlar.

Mütəxəssislərin fikrincə, vergi hüququ demokratik cəmiyyətdə elə qurulmalıdır ki, vergi ədalətliliyi və vergi orqanları ilə vergi ödəyicilərinin vəzifə və hüquqlarının balanslaşdırılması təmin edilsin. Ədalətlilik prinsipi saxlanmaqla vergi qanunvericiliyində elə istiqamətlər müəyyən edilməlidir ki, bunlar vergi siyasətinin müəyyən edilməsində və həyata keçirilməsində qanun yaradıcıları və qanun icraçıları üçün istiqamətverici olsun.

Demək olar ki, bütün dövrlərdə vergilərin ədalətli olması üçün müxtəlif cəhdlərə baxmayaraq, insanları tam qane edəcək bir sistemin yaradılması mümkün olmamışdır. Vergi ədalətliliyinin problemlərinə toxunan ayrı-ayrı müəlliflər qeyd edirlər ki, ədalətli vergi sisteminin yaradılması istənilən dövlətin ideal arzusudur, hansı ki, hələlik heç bir ölkədə bu arzu reallığa çevrilməmişdir. Buna baxmayaraq, hər bir demokratik dövlətdə, o cümlədən Azərbaycanda da vergi sistemində ədalətliliyin təmin edilməsi əsas diqqət mərkəzində olan məsələlərdəndir.

Sonda qeyd olunmalıdır ki, vergi qanunvericiliyində ədalətlilik prinsipinə əməl olunması üçün ilk növbədə vergilərin vergi ödəyicilərinin real ödəmə qabiliyyəti nəzərə alınmaqla müəyyən edilməsinə, pul vəsaitlərinin müəyyən hissəsinin vergi öhdəliyindən azad olunmasını təmin edən normaların tətbiqinə əsas diqqət yönəldilməlidir. Ödənilməli vergi məbləğləri mütənasiblik prinsipi əsasında elə müəyyən edilməlidir ki, vergi ödəyicisi öz həyatının ləyaqətli təminatı və sərbəst inkişaf etməsi üçün hüquqlarla təmin edilmiş olsun. Eyni zamanda, ədalətliliyin təmin olunması istiqamətində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyaları üzrə zəruri vergi azadolmaları və güzəştləri müəyyən edilməklə, onlar üçün sadələşdirilmiş və sərfəli vergitutma şəraiti yaradılmalıdır.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

# Vergi ödəyicisinin yaşayış yeri

*Vergi ödəyicisinin yaşayış yeri barədə məlumatın dəyişməsinə görə vergi orqanına məlumat verilmədikdə vergi ödəyicisinə qarşı hansı məsuliyyət tədbiri tətbiq edilir?*

Vergi Məcəlləsinin (Məcəllə) 33.1-ci maddəsinə əsasən, vergi nəzarətinin həyata keçirilməsini təmin etmək məqsədilə vergi ödəyicisi olan hüquqi şəxslər olduqları (dövlət qeydiyyatı haqqında sənədlərdə qeyd olunmuş hüquqi ünvan), vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirdən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər Azərbaycan mənbəyindən gəlirin alındığı yer üzrə, fərdi sahibkarlar və həmin Məcəllənin müddəalarına uyğun olaraq bəyannamə verməli olan rezident fiziki şəxslər yaşadıqları, xüsusi notariuslar isə fəaliyyət göstərdiyi yer üzrə vergi orqanlarında uçota alınır. Eyni zamanda, Məcəllənin 34.1-ci maddəsinə əsasən, vergi orqanı tərəfindən vergi ödəyicisi olan fiziki şəxslər uçota alındıqda yaşadıqları ünvan barədə məlumatlar onların şəxsi məlumatlarına daxil edilir.

Bundan əlavə, həmin maddədə qeyd olunmuşdur ki, uçota alınmaq üçün ərizənin forması müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Vergilər Nazirliyi) tərəfindən təsdiq olunur.

Qeyd edək ki, Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən vergi ödəyicisinin uçota alınması üçün ərizənin forması təsdiq olunmuş və bu ərizə formasında vergi ödəyicisinin yaşadığı yer haqqında məlumatın əks olunması nəzərdə tutulmuşdur.

Məcəllənin 34.3-cü maddəsinə müvafiq olaraq, vergi ödəyicisinin olduğu yer və ya yaşadığı yer dəyişdikdə vergi orqanına bu cür dəyişiklik baş verdiyi gündən 40 gün müddətində ərizə verilməlidir. Məcəllənin qüvvədə olan redaksiyasının 58.2-ci maddəsində, həmçinin, qeyd olunur ki, 33.4-cü maddəsində göstərilən müddətdə vergi orqanında uçota alınmaq üçün və ya 34.3-cü maddəsində göstərilən müddətdə olduğu yer barədə ərizənin verilməməsinə, eləcə də digər uçot məlumatlarında (vergi ödəyicisinin vergi uçotuna alınması haqqında ərizədə qeyd olunan rekvizitlər) dəyişiklik haqqında məlumatın təqdim edilməməsinə görə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Bu baxımdan, şəxsin yaşayış yeri barədə məlumat onun digər uçot məlumatına aid olduğu üçün həmin məlumatda dəyişiklik haqqında məlumat Məcəllənin 34.3-cü maddəsində göstərilən müddətdə vergi orqanına təqdim olunmadıqda vergi ödəyicisinə Məcəllənin 58.2-ci maddəsində nəzərdə tutulan məbləğdə maliyyə sanksiyası tətbiq edilməlidir.

# İqtisadi artım əhalinin gəlirlərinə də müsbət təsir göstərib

## Tikinti-quruculuq işləri genişləndikcə bu sahədə çalışanların sayı və əməkhaqqı da artır

*Bu ilin ötən dörd ayı ərzində Azərbaycanın iqtisadi və sosial sahələrində baş vermiş dəyişikliklər, iqtisadi artım həm tikinti-quruculuq işlərinin daha geniş vüsət almasına, həm də əhalinin gəlirlərinə öz müsbət təsirini göstərmişdir. Makroiqtisadi sahədə əldə olunan müsbət nəticələr əhalinin sosial rifahının yaxşılaşmasına rəvac verir.*

Cari ilin yanvar-aprel aylarında əhalinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,3% artaraq 10,3 milyard manata çatmış, onun hər nəfərə düşən həcmi orta hesabla 1108,7 manat təşkil etmişdir. Hər nəfərə düşən gəlirlərin artımı istehlak qiymətlərinin bahalaşmasını 3,5 faiz bəndi üstələyərək 4,9% olmuşdur. Bu dövr ərzində gəlirlərin 69,4% -i son istehlaka, 9,3%-i vergilərin, sosial sığorta və üzvlük haqlarının, 1,8%-i kreditlər üzrə faizlərin ödənilməsinə, 19,5%-i isə əmanətlərin və kapitalın artırılmasına yönəldilmişdir. Əhalinin sərəncamında qalan 9,3 milyard manatlıq gəlir isə əvvəlki ildəkinə nisbətən 6,1% artmışdır.

Dövlət Statistika Komitəsinin hesablamalarına görə, may ayının göstəricilərinə əsasən, Azərbaycanda iqtisadi fəal əhalinin sayı 4 milyon 706,8 min nəfər təşkil etmişdir. Onların 4 milyon 464,7 min nəfəri iqtisadi əmək fəaliyyəti ilə məşğuldur.

2013-cü ilin yanvar-aprel aylarında muzdla işləyənlərin sayı 1 milyon 479,3 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət bölməsində 901,2 min nəfər, qeyri-dövlət bölməsində isə 578,1 min nəfər təşkil etmişdir. Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 7%-i tikinti sahəsi ilə məşğul olmuşdur. Sözügedən dövrdə inşaat bölməsində çalışan işçilərin orta siyahı sayı digər sahələrə nisbətən daha çox artmışdır. Belə ki, ötən ilin eyni dövrü ilə müqayisədə bu sahədə çalışanların sayı 15,4% artaraq 93,1 min nəfərə çatmışdır. Tikintidə çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,1% artaraq 588, 7 manat təşkil etmişdir.

Ölkədə inşaat işlərinin aparılması üçün maliyyələşmənin bütün mənbələrindən yanvar-aprel ayları ərzində əsas kapitala 4,3 milyard manat, yaxud 2012-ci ilin yanvar-aprel aylarında olduğundan 28,4% çox vəsait yönəldilmişdir. İstifadə olunmuş vəsaitin 2,3 milyard manatı və ya 53,8%-i məhsul istehsalı obyektlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitin 3,1 milyard manatını və ya 72,2%-ni daxili investisiyalar təşkil etmiş və ötənilki səviyyədən 24,3% yüksək olmus, xarici mənbələrdən istifadə olunmuş investisiyanın həcmi isə 40,8% artmışdır. Bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuş vəsait ötən ilin müvafiq dövrü ilə müqayisədə 40,9% artaraq 2,7 milyard manat təşkil etmişdir.

Cari ildə tikintisinin davam etdirilməsi məqsədəuyğun hesab edilən obyektlərdə inşaat işlərinin aparılması üçün dövlət büdcəsindən 7 milyard manat məbləğində vəsait ayrılması nəzərdə tutulmuş və ilin əvvəlindən ötən dörd ay ərzində həmin vəsaitin 1,8 milyard manatından istifadə edilmişdir.

Tikinti kompleksinə yönəldilmiş vəsait hesabına çoxsaylı obyektlərdə inşaat işlərinin aparılması ilə yanaşı, bir sıra istehsal və qeyri-istehsal obyektləri də istifadəyə verilmişdir. Dörd ay ərzində ümumi sahəsi 509 min kv.metr olan yaşayış evi, 2458 şagird yerlik ümumtəhsil məktəbi, növbədə 130 nəfəri qəbul etmək imkanına malik ambulatoriya-poliklinika müəssisəsi, 317 yerlik məktəbəqədər təhsil müəssisəsi, 584 yerlik klub, Bakıda «Gəmi təmiri və gəmiqayırma» İstehsalat Birliyi, Qəbələ rayonunda Mədəniyyət Mərkəzi, Atıcılıq Klubunun birinci mərhələsi, Heyvandarlıq-südçülük kompleksi, üzüm emalı zavodu, Hacıqabul rayonunda seramik plitələr zavodu və digər obyektlər istifadəyə verilmişdir.

**Rəşad SADIQOV**

# Vergi borclarının alınması sahəsində yeniliklər

*Son dövrlərdə vergi borclarının dövlət büdcəsinə daha çevik alınmasının təmin edilməsi məqsədilə ənənəvi tədbirlərlə yanaşı, yeni üsulların da tətbiqinə başlanılmışdır. Vergi ödəyicilərinin müxtəlif məlumat kanalları (qısa mesajlar və zənglər) vasitəsilə borcları barədə dərhal məlumatlandırılması və onların birgə iştirakı ilə borclarının araşdırılması nəticəsində borclu vergi ödəyicilərinin sayının azalmasına nail olunmuşdur.*

Bu sahədə son yeniliklərdən biri də budur ki, nazirliyin rəsmi internet saytında (www.taxes.gov.az) məhkəmə qətnamələri əsasında keçirilən hərraclarda borclu ödəyicilərin satışa çıxarılan əmlaklarına dair fotoşəkilləri yerləşdirilməyə başlanılıb. Müxtəlif əmlakların hərraca çıxarılması və satışına dair elanlar artıq fotoşəkillərlə birlikdə müvafiq dizaynla tərtib edilir. www.taxes.gov.az saytının «Hərraclar» bölməsinə daxil olmaqla hər bir vətəndaş hərraca çıxarılan əmlakın vizual görünüşü ilə tanış ola bilər. Vətəndaş bu bölməyə daxil olmaqla hərraca çıxarılan malın şəklini seçərək, ekranda malın şəkli ilə yanaşı, malın adı, məhkəmə qətnaməsinin tarixi, borclu vergi ödəyicisinin adı, əmlakın yerləşdiyi ünvan, əmlakın tam dəyəri, hərrac qiyməti, miqdarı, beh, hərracın keçirilmə ünvanı və nömrələr haqqında ətraflı məlumat əldə edə bilir. Hesab edilir ki, bu yenilik hərraca çıxarılmış malların daha tez satılmasına imkan yaradacaqdır.

Yaxın zamanlarda isə Vergilər Nazirliyinin rəsmi internet saytı vasitəsilə ***«Borclarını özün idarə et»*** layihəsinin tətbiqi planlaşdırılır. Bu cür layihə bir sıra Avropa ölkələrinin - İrlandiya, Birləşmiş Krallıq, Niderland, həmçinin Kanada və ABŞ-ın vergi orqanları və kollektor şirkətləri tərəfindən də tətbiq edilir. İnternet saytında yaradılacaq alət vasitəsilə borclu vergi ödəyicilərinə borclarının məbləği, tərkibi, son ödəmə müddətləri, ödənilmədiyi təqdirdə görüləcək tədbirlər barədə onlayn qaydada məlumat almaq imkanının yaradılması nəzərdə tutulur. Borcların vergi ödəyicilərini məlumatlandırılmaqla idarə edilməsi, vergi ödəyicilərinin intizamlılıq səviyyəsinin yoxlanılması imkanının olması, vergi orqanları ilə vergi ödəyiciləri arasında səmərəli dialoqun yaradılması, o cümlədən kiçik məbləğli borcların daha səmərəli idarə edilməsi baxımından yeni layihənin tətbiqi faydalı olacaq. Layihənin tətbiqi məqsədilə Vergilər Nazirliyinin rəsmi internet saytında «Borclarını özün idarə et» adlı müvafiq bölmənin yaradılması nəzərdə tutulur.

Bu bölməyə müvafiq identifikasiyadan keçməklə daxil olan vergi ödəyicisi «Borclarının ödənilməsinə dair yardım əldə et» bölməsində çat vasitəsi ilə aşağıdakı məlumatları onlayn qaydada əldə etmək imkanı qazanacaqdır:

- ümumi vergi borcu;
- borcun yaranma mənbəyi barədə məlumat;
- borcun ödənilmədiyi halda görüləcək tədbirlər (vergi orqanının vəzifələri);
- mülkiyyətində olan əmlaklar barədə vergi orqanında olan məlumatlar;
- əldə edilə biləcək hüquqi kömək;
- borcun ödənilməsinə möhlətin verilməsi imkanı.

Bunlarla yanaşı, həmin bölmədə yerləşdirilməsi nəzərdə tutulmuş forma üzrə hüquqi şəxslərə aktivləri, fiziki şəxslərə isə əmlak və gəlir mənbələri barədə məlumatları onlayn qaydada doldurmaq imkanı yaradılacaqdır. «Borclarının ödənilməsinə dair yardım əldə et» bölməsində vergi ödəyicisi onlayn çat vasitəsilə özünə lazım olan məlumatı əldə edə bilmədikdə və ya əlavə dəqiqləşdirmənin aparılması zərurəti yarandıqda, əlaqə detallarını daxil etməklə «195 Çağrı Mərkəzi ilə əlaqə» düyməsini basaraq yardım tələb etməsi barədə informasiyanı Mərkəzə ötürəcək. Mərkəzin əməkdaşları tərəfindən iş vaxtında dərhal, qeyri-iş vaxtında isə ən qısa müddətdə vergi ödəyicisi ilə əlaqə saxlanılması nəzərdə tutulur.



Haqqında Qanunvericilik Bəyannamə E-Xidmətlər Bir Pəncərə Müraciətlər Statistika Faydalı
Mənə lazımdır ... az | рус
AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ rəsmi internet-səhifə
Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik HEYDƏR ƏLİYEV

Hərraclar (22.05.2013)

| S/N | Əmlakın şəkli | Əmlakın adı | Borclu vergi ödəyicisinin adı | Əmlakın miqdarı | Tam dəyər (AZN) | Hərrac qiyməti (AZN) | Beh (AZN) | Əmlakın yerləşdiyi ünvan |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | | Mineral su | Qasımov Fəxrəddin Yaqub oğlu VÖEN 3100109202 | 60 | 9 | 9 | 0 | Xırdalan şəhəri,27-ci məhəllə,1 saylı yataqxana |
| 2 | | Kola 0,5 litr | Qasımov Fəxrəddin Yaqub oğlu VÖEN 3100109202 | 240 | 84 | 84 | 8 | Xırdalan şəhəri,27-ci məhəllə,1 saylı yataqxana |
| 3 | | Beko 2300 kondisioner | Qasımov Fəxrəddin Yaqub oğlu VÖEN 3100109202 | 1 | 30 | 30 | 3 | Xırdalan şəhəri,27-ci məhəllə,1 saylı yataqxana |
| 4 | | Avtomobil yuma avadanlığı | Əsgərov Nurağa Bahadır oğlu VÖEN 3100153402 | 1 | 1800 | 1800 | 180 | Saray qəsəbəsi, N.Aslanov küçəsi ev 32 |
| 5 | | Gips | Qasımov Ağasəf Mirbala oğlu VÖEN 3100464752 | 60 | 240 | 240 | 24 | Hökməli qəsəbəsi, A.Əhmədov küçəsi ev 35 |
| 6 | | Araq (0.5 lt) | "Zaqatala Ət" ASC VÖEN 5100014321 | 820 | 2 | 1 | 0 | Zaqatala r-nu, Muxax ə/V |
| 7 | | Astar alçı | Qasımov Ağasəf Mirbala oğlu VÖEN 3100464752 | 50 | 250 | 250 | 25 | Hökməli qəsəbəsi, A.Əhmədov küçəsi ev 35 |
| 8 | | Balon bağlayan aparat | "Delta-S" MMC VÖEN 5100007831 | 1 | 2000 | 1600 | 160 | Zaqatala r-nu, Aşağı Tala kəndi |

«Borclarını özün idarə et» adlı bölmədə «Öz maliyyə vəziyyətini planlaşdır» altbölməsinin yaradılması da nəzərdə tutulur. Bu bölmədə vergi borcu və ya müvafiq borc məbləğinin ödənilməsi üzrə gecikdirilmiş günlərə əsasən hesablanacaq faiz məbləğinin müəyyən edilməsi üçün faiz kalkulyatoru yerləşdiriləcəkdir.

Bu xidmətdən istifadə etməklə vergi ödəyiciləri öz borcları haqqında ətraflı məlumat əldə edə, borca görə faizlərin hesablanmasının qarşısını ala, müflis olma ehtimalını minimuma endirəcəklər.

**Arzu İBRAHİMOVA**

# «Elektron hökumət» portalından istifadə edənlərin sayı artıb

*«Elektron hökumət» müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən ölkə ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə elektron və e-xidmətlərin göstərilməsinə şərait yaradan sistemdir. Ölkəmizdə «Elektron hökumət»in formalaşdırılması beynəlxalq təcrübəyə əsaslanır.*

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən «2013-2015-ci illərdə «Elektron hökumət»in inkişafı Dövlət Proqramı» layihəsinin hazırlanması bu sahənin inkişafında daha mühüm rol oynayacaq. Bu proqram «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı»nın davamı hesab olunur. Yeni proqram respublikada «Elektron hökumət»in formalaşdırılması və bunun üçün dövlət orqanlarında müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə idarəetmənin metod və mexanizmlərinin təkmilləşdirilməsi, elektron xidmətlərin göstərilməsi, həmçinin əhali və təşkilatların bu xidmətlərdən asan və sərbəst istifadə edə bilməsi üçün kompleks tədbirlərin görülməsini nəzərdə tutur.

E-hökumət infrastrukturunun əsas komponentləri içərisində yer alan «Elektron hökumət» portalı (www.e-gov.az) hazırda yeni tərtibatda fəaliyyət göstərir. Vətəndaşların dövlət orqanları ilə təmaslarının daha münasib şəkildə təşkili üçün «bir pəncərə» prinsipi əsasında təşkil olunan və dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin cəmləşdirildiyi «Elektron hökumət» portalı vasitəsilə dövlət orqanlarına getmədən, vaxt itkisi olmadan müvafiq xidmətlərdən istifadə edilir. Portalda 35 dövlət qurumu tərəfindən 207 elektron xidmət istifadəçilərə təqdim edilib. Hər bir dövlət qurumu elektron xidmətlərini «bir pəncərə» prinsipi əsasında istifadəçilərə portal vasitəsilə təqdim edir, məlumatların keyfiyyətinə, tamlığına və düzgünlüyünə qurumlar cavabdehdirlər. Vətəndaş istənilən dövlət qurumuna müraciət edib, ona aid olan lazımi məlumatı qanun çərçivəsində əldə edə bilər. Portal vasitəsilə dövlət idarəçiliyində keyfiyyətli elektron xidmətlərin göstərilməsi vətəndaşların həmin xidmətlərdən aktiv istifadəsinə imkan yaradır.

Qeyd edək ki, «Elektron hökumət» portalından istifadə etmək üçün üç üsul ilə autentifikasiyadan keçmək mümkündür:

- «Elektron hökumət» sistemi tərəfindən vətəndaşa verilmiş kod ilə daxil olmaq və qeydiyyatdan keçmək;
- Smartfon və planşetlər üçün mobil autentifikasiya sertifikatı ilə daxil olmaq;
- RİTN tərəfindən verilmiş elektron imza kartı ilə daxil olmaq.

«Elektron hökumət» portalına daxil olanların sayı isə durmadan artır. Bu, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzinin (MHM) «Elektron hökumət» portalına daxil olanlar haqda açıqladığı növbəti statistik məlumatlarda özünü göstərir. 2011-ci ilin dekabrından indiyə qədər portala ümumilikdə 213.291 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 135.365 nəfər olub. Həmin şəxslər ümumən portala 213.291 dəfə baxıblar, 692.882 müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt təxminən 4 dəqiqə 14 saniyə olub. Bu müddət ərzində portala müraciət edənlərin 63,7%-ni yeni istifadəçilər, 36,3%-ni isə təkrar müraciət edənlər təşkil edib.

**AYTƏN**

# Vergilər Nazirliyi beynəlxalq sərgilərdə iştirak edib




May ayının 22-də Bakı Sərgi Mərkəzində «WorldFood Azerbaijan-2013» XIX Azərbaycan Beynəlxalq qida sənayesi və «Agrihort Azerbaijan-2013» VII Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgilərinin açılışı olmuşdur. Bu sərgilərin kənd təsərrüfatı məhsullarının istehsal və emal proseslərində yeni texnologiyaların tətbiqi ilə yanaşı, sahənin inkişafına və təkmilləşdirilməsinə, yerli və xarici iş adamları üçün işgüzar mühit yaratmaqla biznes əlaqələrinin qurulmasına və genişləndirilməsinə xidmət etdiyi bildirilmişdir. Sərgidə 30-dan çox ölkədən 180-dək şirkət iştirak etmişdir.

Vergilər Nazirliyinin pavilyonu tədbir iştirakçılarının böyük marağına səbəb olmuşdur. Tədbir keçirilən müddətdə Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsinin əməkdaşları sərgi iştirakçılarını maraqlandıran suallara cavab verməklə, çoxlu sayda məlumatlandırıcı materiallar paylamışlar.

# Yeni inzibatçılıq qaydaları ikiqat vergitutma sahəsində problemləri aradan qaldıracaq

*Ötən dövr ərzində beynəlxalq vergitutma sahəsində baş verən dinamik inkişaf və tendensiyalar, bir sıra dövlətlərin vergi orqanları ilə yazışmalar, bəzi dövlət qurumları, diplomatik nümayəndəliklər və vergi ödəyicilərinin müraciətlərinin təhlilinin nəticələri «Azərbaycan Respublikası ilə digər dövlətlər arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair beynəlxalq sazişlərin inzibatçılığı Qaydaları»nın praktiki tətbiqinin asanlaşdırılmasına ehtiyac olduğunu göstərmişdir. Bütün bunlar nəzərə alınaraq, qaydalara bir sıra dəyişikliklər edilmişdir.*

***Əvvəlki qaydaların tətbiqi ilə bağlı müşahidə edilən problemlər***

İndiyədək mövcud olan qaydalara əsasən, dəniz və hava gəmiləri vasitəsilə beynəlxalq daşımaları həyata keçirən qeyri-rezidentlər müvafiq formanı dolduraraq hər hansı xarici dövlətin və Azərbaycanın müvafiq vergi orqanı tərəfindən təsdiqlənməklə müqavilədə nəzərdə tutulmuş azadolmalardan əvvəlcədən faydalana bilirdi. Digər nəqliyyat vasitələri ilə həyata keçirilən beynəlxalq daşımalara münasibətdə müqavilədə azadolma nəzərdə tutulduqda isə həmin azadolmalar daşımaları həyata keçirən qeyri-rezidentlərdən Azərbaycanda verginin tutularaq sonradan geri qaytarılması yolu ilə tətbiq edilirdi. Nəqliyyat Nazirliyinin məlumatlarından bəlli olmuşdur ki, bu fərq avtomobil nəqliyyatı vasitəsilə ətraf ölkələrdən Azərbaycana və əksinə sərnişin daşıyan qeyri-rezidentlərin fəaliyyətində müəyyən çətinliklər yaradırdı. Daha bir zəruri məsələ isə bəzi müqavilələr üzrə Azərbaycan Respublikasının tərəf-müqabili olan dövlətlərin qanunvericiliklərində mövcud olan məhdudiyyətlərlə bağlıdır. Köhnə qaydalara əsasən, qeyri-rezidentlərin digər dövlətlərdə rezidentliklərinin Qaydalara əlavə olunan formaların tərkibində həmin dövlətin vergi orqanı tərəfindən təsdiq edilməsi tələb olunur. Lakin bir sıra dövlətlərin daxili qanunvericilikləri dövlət orqanlarına başqa dövlətlərin formalarını imzalamağı və möhürləməyi qadağan edir ki, bu da həmin dövlətlərin rezidentlərinə müqavilənin üstünlüklərindən yararlanmaqda çətinlik yaradır. Bununla bağlı ən çox problemlərlə rastlaşan Türkiyə rezidentləridirlər və Türkiyənin Azərbaycandakı səfirliyi tərəfindən məsələ ilə bağlı Xarici İşlər Nazirliyi və Nazirlər Kabinetinə müraciətlər edilmişdir.

***Gəlirin, əmlakın yalnız mənbə və rezidentlik dövlətində vergiyə cəlb edilməsi***

Beynəlxalq müqaviləyə uyğun olaraq, hər hansı gəlirin, əmlakın yalnız mənbə və ya yerləşmə dövlətində vergiyə cəlb edilməsi nəzərdə tutulduğu halda, Azərbaycan rezidentinin razılığa gələn digər dövlətdəki mənbələrdən əldə etdiyi gəliri və ya əmlakı Azərbaycan Respublikasında vergidən azad edilir.

Gəlirin və ya əmlakın yalnız rezidentlik dövlətində vergiyə cəlb edilməsi nəzərdə tutulduqda Azərbaycan rezidentinin razılığa gələn digər dövlətdəki mənbələrdən əldə etdiyi gəliri və ya əmlakı həmin dövlətdə vergidən azad edilməklə, Azərbaycan Respublikasında daxili qanunvericiliyində nəzərdə tutulmuş qaydada vergiyə cəlb edilir.

Azərbaycanın rezidenti mənbə dövlətində tam və ya məhdud vergitutmaya cəlb edilə bilən gəlir əldə edirsə və ya əmlaka sahibdirsə, ikiqat vergitutmanın aradan qaldırılıması üçün həmin rezident tərəfindən bu cür gəlir, əmlaka görə mənbə dövlətində ödənilmiş vergi məbləği rezidentdən həmin gəlir və ya əmlaka münasibətdə Azərbaycan Respublikasında hesablanan vergi məbləğindən çıxılmalıdır. Lakin bu çıxılma, Azərbaycan Respublikasının qanunvericiliyinə və vergitutma qaydalarına uyğun olaraq, belə gəlir və ya əmlaka hesablanmış verginin məbləğindən artıq olmamalıdır.

***Azərbaycan Respublikasında rezidentliyin təsdiq edilməsi***

Azərbaycan rezidentinin razılığa gələn digər dövlətdə beynəlxalq müqavilənin başqa üstünlüklərindən istifadə etməsi məqsədilə həmin rezidentə rezidentlik barədə arayış verilir. Razılığa gələn digər dövlətin rezidentliyin təsdiqi ilə bağlı xüsusi forması olduqda Azərbaycan Respublikasında rezidentlik həmin forma üzrə təsdiqlənməlidir. Azərbaycan Respublikasının rezidenti olan şəxsə rezidentlik barədə arayış onun Azərbaycan Respublikasında uçotda olduğu vergi orqanı tərəfindən verilməlidir.

Fiziki şəxsin Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən vergi uçotuna alınması nəzərdə tutulmadığı hallarda isə həmin fiziki şəxs rezidentlik barədə arayış almaq üçün qeydiyyatda olduğu və ya yaşadığı yer üzrə vergi orqanına müraciət etməlidir.

Beynəxalq müqavilənin digər üstünlükləri - müvafiq beynəlxalq müqavilənin, xüsusilə xalis mənfəətin köçürülməsi ilə bağlı vergidən azad edilmə, qarşılıqlı razılaşdırma prosedurunun aparılması və ayrı-seçkiliyə yol verilməməsi ilə bağlı olan, lakin bunlarla məhdudlaşmayan üstünlüklərdir.

***Beynəlxalq daşımaların vergiyə cəlb olunması***

Azərbaycan Respublikasında qeyri-rezident öz fəaliyyətini daimi nümayəndəlik vasitəsilə həyata keçirirsə, onun beynəlxalq daşımalardan əldə etdiyi mənfəət rezidenti olduğu razılığa gələn digər dövlətdə vergiyə cəlb edilir.

Azərbaycan Respublikasında daimi nümayəndəlik vasitəsilə beynəlxalq daşımaları həyata keçirən qeyri-rezidentin həmin daşımalardan əldə etdiyi gəlirlərə münasibətdə bu müddəaları qeyri-rezident tərəfindən digər dövlətin xüsusi formasında və ya sərbəst formada tərtib olunmuş və həmin digər dövlətin səlahiyyətli vergi orqanı tərəfindən təsdiq edilmiş rezidentlik barədə arayış daimi nümayəndəliyin Azərbaycan Respublikasında uçotda olduğu vergi orqanına təqdim edildiyi halda tətbiq edilir.

Bununla yanaşı, daimi nümayəndəlik vasitəsilə beynəlxalq daşımaları həyata keçirən qeyri-rezidentin daimi nümayəndəliklə bağlı bu cür gəlirlərindən gəlir ödəyən şəxs tərəfindən ödəniş mənbəyində vergi tutulmaması üçün gəlir ödəyən şəxsə daimi nümayəndəliyin vergi orqanlarında uçotda olması barədə şəhadətnamənin surəti təqdim edilməlidir.

Beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda qeyri-rezidentin beynəlxalq daşımalarda istismar olunan dəniz və hava gəmiləri əmlak vergisinə qeyri-rezidentin rezident olduğu razılığa gələn digər dövlətdə cəlb edilir.

***Qeyri-rezidentin Azərbaycan Respublikasında fəaliyyətini daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya keçirmədiyi hallar üzrə vergiyə cəlb olunma***

Qeyri-rezident Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətini daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi hallarda, əldə etdiyi mənfəət Azərbaycan Respublikasının daxili qanunvericiliyinə müvafiq olaraq müəyyən edilir və vergiyə cəlb edilir.

Qeyri-rezident fiziki şəxs müstəqil fərdi xidmətlər göstərmək məqsədilə Azərbaycan Respublikasında müntəzəm istifadə etdiyi daimi bazaya sahib olduğu hallarda, həmin qeyri-rezidentin belə peşəkar xidmətlərdən və ya müstəqil xarakterli digər fəaliyyətlərdən gəliri Azərbaycan Respublikasının daxili qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən, qeyri-rezidentin daimi nümayəndəliyinin gəlirlərindən ödəniş mənbəyində vergi tutulmaması üçün qeyri-rezident tərəfindən gəlir ödəyən şəxsə daimi nümayəndəliyin Azərbaycan Respublikasının vergi orqanlarında uçotda olması barədə şəhadətnamənin surəti təqdim edilməlidir.

Azərbaycan Respublikasında daimi nümayəndəlik və ya daimi baza vasitəsilə fəaliyyət göstərməyən qeyri-rezidentin Azərbaycan Respublikasındakı mənbələrdən əldə etdiyi gəlirlərdən, ödəmə mənbəyində xərclər çıxılmadan, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 125-ci maddəsində göstərilən dərəcələrlə vergi tutulmalıdır.

Beynəlxalq müqavilədə həmin gəlirlərə münasibətdə məhdud vergitutma və ya azadolma nəzərdə tutulduğu hallarda, qeyri-rezidentin artıq ödənilmiş vergilər barədə vergi orqanına ərizə təqdim etdiyi tarixdən 45 gündən gec olmayaraq maliyyə orqanları tərəfindən qeyri-rezidentlərin bank hesablarına qaytarılmalıdır.

***Qeyri-rezidentin Azərbaycan Respublikasında fəaliyyətini daimi nümayəndəlik yaratmayan bölmə vasitəsilə həyata keçirdiyi hallar üzrə vergiyə cəlb olunma***

Qeyri-rezidentin Azərbaycan Respublikasında fəaliyyət göstərən və beynəlxalq müqaviləyə müvafiq olaraq müəyyən müddət çərçivəsində daimi nümayəndəlik yaratmayan və Vergi Məcəlləsinin 33.8-ci maddəsinə müvafiq olaraq vergi orqanında uçota duran bölməsi tərəfindən qeyri-rezidentin Azərbaycan Respublikasında fəaliyyətini daimi nümayəndəlik yaratmayan bölmə vasitəsilə həyata keçirməsinin təsdiq edilməsinə dair ərizə təqdim edildiyi halda, gəlir ödəyən şəxs tərəfindən həmin formada göstərilən müddətdə işlərə (xidmətlərə) görə aparılan ödənişlərdən ödəniş mənbəyində vergi tutulmamalıdır.

**Arzu İBRAHİMOVA**

# Avtomatlaşdırılmış pensiya sisteminə keçid sürətlənir

*Azərbaycanın sığorta-pensiya sisteminin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi tədbirləri davam etdirilir. Son illər bu sahədə həyata keçirilən islahatların strateji hədəfləri pensiyaçıların sosial müdafiəsinin, layiqli həyat səviyyəsinin təmin olunması məqsədilə pensiya ödənişlərinin etibarlı maliyyə təminatının yaradılması, habelə sistemin bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırılması, səmərəliliyinin yüksəldilməsidir.*

«2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı»nda əksini tapmış mühüm müddəalardan biri də pensiya təyinatının tam avtomatlaşdırılması yolu ilə əməliyyatların vahid mərkəzdən həyata keçirilməsinə keçidin təmin olunmasıdır. Dövlət Sosial Müdafə Fondu (DSMF) Dövlət Proqramında yer almış bu və digər tədbirlərin müvafiq qrafikə uyğun reallaşdırılmasına çalışır. Avtomatlaşdırılmış pensiya təyinatına keçidin mühüm tərkib hissəsi kimi «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikası Qanununa dəyişikliklər edilib, vətəndaşlara sığorta kapitalı kimi 2006-cı il yanvarın 1-dək olan dövrə aid ümumi iş stajının hər ili üçün 170 manatın verilməsi təmin olunub.

Pensiya təyinatının avtomatlaşdırılması istiqamətində görülən əsas tədbirlərdən biri də sığortaolunanların fərdi hesablarında toplanmış sosial sığorta haqlarının məbləği barədə müasir məlumatlandırma sisteminin yaradılmasıdır. Bu iş tam yekunlaşdırılıb və «Sığortaolunanlara məlumatların verilməsi» adlı müasir məlumatlandırma sistemi elektron xidmət kimi əhalinin istifadəsinə verilib. Bu xidmət vətəndaşların pensiya təminatında şəffaflığın təmin edilməsi baxımından son dərəcə mühüm əhəmiyyət kəsb edir.

İndiyə qədər DSMF tərəfindən 2 milyon 530 mindən artıq sığortaolunana fərdi şəxsi hesab açılıb. Hazırda həmin vətəndaşların hamısı yeni xidmətdən yararlanmaq imkanına malikdirlər. Əmək müqaviləsi ilə işləyən hər bir vətəndaş DSMF-nin saytına daxil olmaqla (www.dsmf.gov.az) sığortaedən (işəgötürən) tərəfindən hər ay üzrə ödənilən məcburi dövlət sosial sığortası barədə məlumatları maneəsiz əldə edə bilər. Sistem pensiya kapitalına daimi nəzarətin həyata keçirilməsinə də imkan verir.

DSMF hesab edir ki, yaradılmış maddi-texniki baza yaxın vaxtlarda Azərbaycanda avtomatlaşdırılmış pensiya təyinatına keçidin tətbiqinə imkan verir. Bunun üçün hələlik yeganə tamamlanmayan iş vətəndaşlardan 2006-cı ilə qədər əmək stajları barədə məlumatların toplanmasıdır. Prosesin sürətləndirilməsi üçün vətəndaşların 2006-cı ilədək olan əmək stajları barədə məlumatları DSMF-nin yerli orqanlarına təqdim etmələrinə ehtiyac var. Hazırda Fondun şöbələri bu prosesi sürətləndirmək istiqamətində zəruri tədbirlər həyata keçirirlər. Bununla yanaşı, vətəndaşların özlərinin bu prosesdə fəal iştirakı vacib sayılır.

DSMF-dən bildirilir ki, işləyən şəxslər əmək kitabçalarını idarə, müəssisə və təşkilatlar vasitəsilə onların uçotda olduğu DSMF orqanına (departamentə, şəhər və rayon şöbəsinə), işləməyən şəxslər isə yaşayış yeri üzrə Fondun yerli şöbələrinə təqdim etməlidirlər. Məqsəd 2006-cı ilə qədərki məlumatların «Sığortaolunanlara məlumatların verilməsi» elektron xidmətində yerləşdirilməsidir. Əməkhaqqı və əmək stajı barədə məlumatları quruma təqdim edən vətəndaşlar avtomatlaşdırılmış pensiya təyinatından maneəsiz istifadə edə biləcəklər.

Ümumilikdə, həyata keçirilən tədbirlər quruma daxil olan sosial sığorta yığımlarının dinamikasına da müsbət təsir göstərir. 2013-cü ilin yanvar-aprel aylarında DSMF-nin gəlirləri 874,6 milyon manat təşkil edib. Bu, proqnoz göstəricisindən 22,6 milyon manat və ya 2,7% çoxdur. Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların 63,8%-nin və ya 295,9 milyon manatının qeyri-büdcə sektorunun payına düşməsi əmək münasibətlərinin rəsmiləşdirilməsi tədbirlərinin nəticəsi sayılır. Həmin sektorun ödədiyi məcburi dövlət sosial sığorta haqlarının məbləği proqnoza nisbətən 54,8 milyon manat və ya 22,7% çoxdur. Bu dövrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin və torpaq pay mülkiyyətçilərinin sosial sığortaya cəlb edilməsi prosesi də gücləndirilib. Nəticədə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən daxilolmalar 50,9%, torpaq pay mülkiyyətçilərindən daxilolmalar isə 85,4% artıb.

Hesabat dövründə pensiya və müavinətlərin maliyyələşdirilməsinə Fond tərəfindən 808,1 milyon manat vəsait yönəldilib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 39,1 milyon manat və ya 5,1% çoxdur. Pensiya xərcləri 2012-ci ilin müvafiq dövrünə nisbətən 5% və ya 37,7 milyon manat artaraq 789,5 milyon manat təşkil edib. Azərbaycan Respublikası Prezidentinin pensiyaların indeksləşdirilməsini nəzərdə tutan müvafiq sərəncamına əsasən, 2013-cü ilin yanvarın 1-dən bütün növ əmək pensiyalarının sığorta hissəsinə 1,1%-lik artım tətbiq olunub.

**S.MUSTAFAYEV**

# Kompensasiya ödənişləri davam etdirilir

*Ölkədə zərərçəkən sığorta olunanların və zərər vurulan üçüncü şəxslərin maraqlarının müdafiəsini, icbari sığorta sisteminin sabitliyi və inkişafını təmin etmək məqsədi ilə İcbari Sığorta Bürosu fəaliyyət göstərir. Büronun qarşısına bir sıra vəzifələr qoyulub ki, onlardan da ən vacibi icbari sığorta növləri üzrə üçüncü şəxslərə kompensasiya ödənişlərinin verilməsidir.*

Büro kompensasiya ödənişlərini sığortaçı müvafiq icbari sığorta müqavilələri üzrə sağlamlığa və ya əmlaka dəyən zərərlə bağlı öhdəliklərini ödəmə qabiliyyətinin olmamasına görə yerinə yetirə bilmədikdə, ölkə ərazisində baş verən hadisələr nəticəsində üçüncü şəxsin sağlamlığına naməlum avtonəqliyyat vasitəsilə zərər vurulduqda, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığorta müqaviləsi mövcud olmayan şəxs tərəfindən avtonəqliyyat vasitəsinin istifadəsi nəticəsində üçüncü şəxsin sağlamlığına zərər vurulduqda ödəyir. Bir şərtlə ki, zərərçəkən zərərin əvəzinin ödənilməsi ilə bağlı zərər vurana qarşı tələb irəli sürməsinə baxmayaraq, bu tələb təmin edilməmiş olsun.



Sağlamlığa dəyən zərər üzrə kompensasiya ödənişi bu ödənişi tələb etmək hüququna malik olan şəxsin yazılı müraciəti əsasında ödənilir. Burada sağlamlığa dəyən zərər, şəxsin yüngül və ya ağır xəsarət alması, şəxsin əmək qabiliyyətini tam və ya qismən itirməsi və şəxsin ölümü hesab edilir. Kompensasiya ödənişləri isə zərərçəkənin ölməsi, o cümlədən aldığı bədən xəsarəti, xəstələnməsi, zəhərlənməsi və ya kontuziya alması nəticəsində sığorta hadisəsi baş verdiyi tarixdən 3 il ərzində ölməsinə görə 5000 manat, zərərçəkənin məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə ölmüş elan edilməsinə görə 5000 manat nəzərdə tutulub. Həmçinin, zərərçəkənin bədən xəsarəti alması, zəhərlənməsi, yaxud kontuziya alması nəticəsində sığorta hadisəsi baş verdiyi tarixdən 3 il ərzində ona qanunvericilikdə nəzərdə tutulmuş qaydada əlillik dərəcəsi təyin olunması və I qrup əlilliyə görə 4000 manat, II - 3000 manat, III - 2000 manat, əlillik qrupu təyin olunmadan ağır xəsarət almasına görə 1500 manat, yüngül xəsarət almasına görə 250 manat müəyyənləşib.

İcbari sığorta müqaviləsi olan şəxs tərəfindən avtonəqliyyat vasitəsinin istifadəsi nəticəsində üçüncü şəxsin sağlamlığına zərər vurulduqda və ya ölüm halı baş verdikdə zərərçəkən şəxslər (onlar öldüyü halda, ailə üzvləri) sığorta ödənişi almaq üçün zərər vuran şəxslə sığorta müqaviləsini bağlayan sığorta şirkətinə müraciət edə bilərlər.

Şəxsin sağlamlığına naməlum avtonəqliyyat vasitəsilə zərər vurulduqda, həmçinin icbari sığorta müqaviləsi mövcud olmayan şəxs tərəfindən avtonəqliyyat vasitəsinin istifadəsi nəticəsində üçüncü şəxsin sağlamlığına zərər vurulduqda zərərçəkən şəxslər (onların öldüyü halda ailə üzvləri) kompensasiya ödənişi almaq üçün İcbari Sığorta Bürosuna müraciət edə bilərlər.

İcbari Sığorta Bürosu kompensasiya ödənişlərini almaq üçün müraciətlərin qəbul edilməsinə ötən ilin aprelindən başlayıb. İcbari sığorta müqaviləsi mövcud olmayan və ya naməlum avtonəqliyyat vasitələri tərəfindən törədilən hadisələr nəticəsində sağlamlığa dəyən zərərlə bağlı büro tərəfindən 18 aprel 2012-ci ildən may 2013-cü il tarixinədək 26.691,5 manat məbləğində 10 kompensasiya ödənişi həyata keçirilib.

**AYTƏN**

# Sadələşdirilmiş vergi bəyannaməsi

## Hüquqi şəxslər üzrə 1№-li Əlavənin tərtib olunmasında mühasibat uçotu məlumatlarının düzgün yerləşdirilməsi

Qulu Soltanov,
sərbəst auditor

**Əvvəli ötən sayımızda**

**Sətir 2.1.5 «Kapital ehtiyatları»**

**«dövr ərzində daxil olmuşdur» sütununda:** Bu sütunda əsasən 86№-li «Ehtiyat kapitalı», 87№-li «Əlavə kapital» və 89№-li «Qarşıdakı xərclər və ödəmələr üçün ehtiyatlar» hesablarının kredit dövriyyəsi üzrə illik yekun məbləğ əks etdirilir. Məsələn, DB81 - KR86, DB80 - KR86, DB51 - KR87, DB01 - KR87, DB20 - KR89 ikili yazılışları.

**«təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir» sütununda:** *Təqdim edilmişdir:* boş saxlanılır. *Silinmişdir:* Burada hesabat ilində 86, 87 və 89№-li hesabların debet dövriyyəsi üzrə illik yekun məbləğ əks etdirilir. Məsələn, DB86 - KR75, DB86 - KR88, DB87 - KR01, DB87 - KR85, DB87 - KR88, DB89 - KR70, DB89 - KR33 ikili yazılışları. *Ləğv edilmişdir:* boş saxlanılır.

***Misal.*** Sadələşdirilmiş vergi ödəyicisi olan müəssisənin kapital ehtiyatları üzrə aşağıdakı ikili yazılışlar verilmişdir *(bax: Cədvəl 1)*.

Bu əməliyyatlar üzrə məbləğlər dövriyyə cədvəlində aşağıdakı kimi olacaqdır *(bax: Cədvəl 2)*.

Bu halda, həmin göstəricilər bəyannamənin Əlavəsində aşağıdakı kimi əks etdirilməlidir *(bax: Cədvəl 3)*.

Bəzən qeyri-adi əməliyyatlar nəticəsində də kapital ehtiyatlarının artması halı mümkündür. Məsələn, müəssisə (ona qoşulanı qəbul edən) qoşulma (başqa bir müəssisənin ləğv edilərək əmlakı və öhdəlikləri ilə birlikdə qəbul edən müəssisəyə qoşulma) yolu ilə yenidən təşkil olunarkən qoşulan müəssisənin kapital ehtiyatlarının məbləği qədər qəbul edən müəssisənin kapital ehtiyatları artırıla bilər.

**Davamı növbəti sayımızda**

Cədvəl 1

| Əməliyyatların məzmunu | Debet | Kredit | Məbləğ |
|---|---|---|---|
| Müəssisə hesabat ilində xalis mənfəət əldə etmişdir | 46 | 80 | 15000 |
| Mənfəətin bir hissəsi bölüşdürülməmiş mənfəət hesabına aid edilmişdir | 81 | 88 | 10000 |
| Hesabat ilində əldə edilən xalis mənfəətin bir hissəsi təsisçilərin qərarına əsasən kapital ehtiyatlarının yaradılmasına yönəldilmişdir | 81 | 86 | 5000 |
| 80№-li hesab bağlanır | 80 | 81 | 15000 |
| Ehtiyat kapitalın bir hissəsi müəssisənin əvvəlki illərindən yığılmış zərərin ödənilməsinə yönəldilmişdir | 86 | 88 | 2000 |
| Ehtiyat kapitalın bir hissəsi təsisçilərə dividendlərin ödənilməsinə yönəldilmişdir | 86 | 75 | 1000 |
| Yenidənqiymətləndirmə nəticəsində əsas vəsaitin artırılan dəyəri uçota alınmışdır | 01 | 87 | 800 |
| Əvəzsiz qəbul edilən materiallar bazar dəyəri ilə uçota alınmışdır | 10 | 87 | 600 |
| Yenidənqiymətləndirmə nəticəsində dəyəri aşağı salınan əsas vəsaitlər üzrə məbləğlər uçota alınır | 87 | 01 | 300 |
| 87 №-li «Əlavə kapital» hesabında uçota alınmış vəsaitlər nizamnamə kapitalının artırılmasına yönəldilmişdir | 87 | 85 | 1000 |
| 87 №-li «Əlavə kapital» hesabında uçota alınmış məbləğlər təsisçilər arasında bölüşdürülmüşdür | 87 | 75 | 500 |
| İşçilərin məzuniyyətlərinin qarşıdakı ödənişini (sosial sığorta və təminata ayırmalar da daxil olmaqla) təmin etmək məqsədilə kapital ehtiyatları yaradılmışdır | 20 | 89 | 1700 |
| Məzuniyyət müddəti üçün işçilərə əməkhaqqı hesablanmışdır | 89 | 70 | 1200 |
| Norma daxilində gəlirdən çıxılmasına yol verilən təmir xərclərinin hesablanmış məbləği uçota alınır | 32 | 89 | 800 |
| Məzuniyyət müddəti üçün işçilərə hesablanmış əməkhaqqına müvafiq sosial sığorta ayırmaları | 89 | 69 | 264 |
| Kənar təşkilat tərəfindən yerinə yetirilən faktiki təmir xərclərinin məbləği | 33 | 60 | 1100 |
| Faktiki təmir xərclərinin norma daxilində gəlirdən çıxılmasına yol verilən təmir xərcləri qədər hissəsi uçota alınır | 89 | 33 | 800 |
| Faktiki təmir xərclərinin norma daxilindən çox (gəlirdən çıxılmasına yol verilməyən) təmir xərcləri qədər qalan hissəsi uçota alınır | 01 | 33 | 300 |
| Norma daxilində hesablanmış təmir xərcləri istehsal xərclərinə silinir | 20 | 32 | 800 |

Cədvəl 2

| Hes. №-si | Hesabın adı | 01 yanvar 2012-ci il tarixə qalıq | | 2012-ci ildə dövriyyə | | 01 yanvar 2013-cü il tarixə qalıq | |
|---|---|---|---|---|---|---|---|
| | | Debet | Kredit | Debet | Kredit | Debet | Kredit |
| 86 | Ehtiyat kapitalı | | 4000 | 3000 | 5000 | | 6000 |
| 87 | Əlavə kapital | | 1500 | 1800 | 1400 | | 1100 |
| 89 | Qarşıdakı xərclər və ödəmələr üçün ehtiyatlar | | | 2264 | 2500 | | 236 |
| | Cəmi | | 5500 | 7064 | 8900 | | 7336 |

Cədvəl 3

| Göstəricilər | Dövr ərzində daxil olmuşdur, manatla | Təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir, manatla | Hesabat dövrünün sonuna, manatla |
|---|---|---|---|
| 2.1.5 Kapital ehtiyatları | 8900 | Təqdim edilmişdir:<br>Silinmişdir: 7064<br>Ləğv edilmişdir: | 7336 |

## vergi təqvimi

| MAY | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | 1 | 2 | 3 | 4 | **5** |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | **12** |
| 13 | 14 | **15** | 16 | 17 | 18 | **19** |
| **20** | 21 | 22 | 23 | 24 | 25 | **26** |
| 27 | 28 | 29 | 30 | 31 | | |

**Qeyd:** Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.

**Ödənilən vergi:**

15 may - «(5)» və «6».
20 may - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlə büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Müəssisələr torpaq sahəsinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən torpaq vergisini illik olaraq hesablayır və may ayının 15-dən gec olmayaraq hesablamaları vergi orqanına verirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

# İxracyönümlü yeni sənaye müəssisələri yaradılır

*Qeyri-neft iqtisadiyyatının inkişaf etdirilməsi, enerji resurslarının ümumi daxili məhsul istehsalında xüsusi çəkisinin azaldılması, iqtisadi şaxələndirmə prosesinin sürətləndirilməsi istiqamətində sistemli tədbirlər həyata keçirən Azərbaycan hökuməti sənaye sektorunda modernləşməni xüsusi diqqət mərkəzində saxlayır.*

Davamlı və tarazlı inkişafda sənayenin lokomotiv rolunu xüsusi dəyərləndirən Prezident İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında da bu sahənin müasirləşdirilməsi tədbirləri dolğun əksini tapıb. Konsepsiyada 2020-ci ilədək respublikanın bu sahədə tarixi ənənələri olan iri şəhər və rayonlarında yeni sənaye istehsalı müəssisələrinin yaradılması və həmin müəssisələrdə innovasiya yönümlü texnologiyaların tətbiqinin stimullaşdırılması, ixtisaslaşmış və ümumi təyinatlı sənaye şəhərciklərinin yaradılması qarşıya məqsəd qoyulub. Konsepsiyanın əhatə etdiyi dövrdə xüsusi iqtisadi zonaların yaradılması və iqtisadi potensial nəzərə alınmaqla, Sumqayıtda neft-kimya, Balaxanıda məişət tullantılarının emalı, Gəncədə metal (alüminium) məmulatların istehsalı üzrə sənaye şəhərciklərinin qurulması nəzərdə tutulub. Qeyri-neft sənayesinin ənənəvi istehsal sahələrinin - kimya, metallurgiya, maşınqayırma, elektrotexnika, elektronika, yüngül sənaye, yeyinti və aqroemal sənayesinin və s. inkişafı və ixrac imkanlarının artırılması ilə yanaşı, rəqabətqabiliyyətli yeni istehsal sahələrinin yaradılması da dəstəklənir.

Ümumilikdə, yeni sənaye sahələrinin yaradılmasına göstərilən diqqətin nəticəsi olaraq, son 10 ildə qeyri-neft sənayesində əlavə dəyər istehsalı 1,8 dəfə artıb. Bu barədə məlumat verən iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərovun sözlərinə görə, ötən dövrdə ölkədə metallurgiya sənayesi 2,2 dəfə, metal məmulatlarının istehsalı 4 dəfə, maşın və avadanlığın istehsalı 2,4 dəfə, rezin və plastmas məmulatlar istehsalı 3,1 dəfə, tikinti materialları istehsalı 2,1 dəfə artıb. N.Səfərov vurğulayıb ki, hazırda respublikanın qara, əlvan və nadir metal filizləri ilə zəngin olması metallurgiyanın, hazır metal məmulatlarının, maşınqayırma və digər əlaqəli sahələrin inkişafına imkan verir.

Yaxın 3 ildə Gəncə şəhərində dəmirin birbaşa reduksiyası, poladəritmə və pellet zavodlarından ibarət metallurgiya kompleksinin inşası nəzərdə tutulur. 3800 nəfərin çalışacağı bu müəssisənin işə salınması ölkədə metallurgiya sahəsinin inkişafına yeni təkan verəcək. Bundan əlavə, həmin regionda əlvan və qiymətli metallardan - qızıl, gümüş və mis hasilatı ilə məşğul olan daha bir müəssisənin işə salınması gözlənilir. İqtisadi inkişaf nazirinin müavini, həmçinin, bildirib ki, hazırda Azərbaycanda müxtəlif təyinatlı sənaye parklarının yaradılması ilə bağlı layihələr üzərində iş gedir.

Bütün bu tədbirlərin başlıca məqsədi, şübhəsiz, ölkənin ümumi daxili məhsulunun strukturunda, büdcə gəlirlərinin formalaşmasında və vergi daxilolmalarında təbii ehtiyatlar amilinin xüsusi çəkisinin qeyri-neft sənayesinin inkişafı hesabına azaldılmasıdır. Həyata keçirilən tədbirlər artıq müsbət nəticələrin əldə olunmasına imkan yaradır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2013-cü ilin yanvar-aprel aylarında 11,3 milyard manatlıq sənaye məhsulu istehsal edilib. Sənaye məhsulunun 74,2%-i mədənçıxarma, 19,3%-i emal bölməsində, 6%-i faizi elektrik enerjisi, qaz, buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,5%-i su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində istehsal olunub.

Sənayenin neft-qaz sektorunda 1,5% azalma olduğu halda, qeyri-neft sektorunda məhsul istehsalı 2,8% artıb. Emal sənayesi 10,2%, o cümlədən qida məhsulları istehsalı 4,7%, içki istehsalı 9,5%, geyim istehsalı 8,7%, dəri və dəri məmulatları, ayaqqabı istehsalı 59,3%, tikinti materialları istehsalı 25,5% çoxalıb.

İqtisadçı ekspertlər hesab edirlər ki, qeyri-neft sənayesinin dinamik artımı, əsasən, ölkədə güclü sənaye potensialının inkişafına stimul yaradan zəngin xammal bazasının mövcudluğu və nəhəng sənaye kompleksləri infrastrukturları ilə bağlıdır. İqtisadi tərəqqi prosesinin keyfiyyətcə yeni mərhələsində qeyri-neft sənayesinin inkişafı həm də ölkədəki əlverişli biznes və investisiya mühiti ilə şərtlənir. Qeyri-sənaye sektorunda iri müəssisələrin işə salınması həm də iri vergi ödəcəyicilərinin sayının artması, vergitutma bazasının genişləndirilməsi, vergi daxilolmalarının həcminin artması üçün əlverişli zəmin yaradır.

**S.MUSTAFAYEV**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

Audit

# Hüquqi şəxsin yenidən təşkil edilməsinin auditi

Son zamanlar yeni hüquqi şəxslərin yaranmasının artımı baş verməsinə baxmayaraq, fəaliyyətini müəyyən müddətə müvəqqəti saxlayan və ya ümumiyyətlə fəaliyyətinə xitam verən (ləğv edilən) hüquqi şəxslərin də olduğunu müşahidə etmək olar. Hüquqi şəxsin fəaliyyətinə ya onun yenidən təşkili, ya da ləğv edilməsi yolu ilə xitam verilə bilər. Yenidən təşkil olunan hüquqi şəxsin yenidən təşkili əməliyyatların həyata keçirilməsinin və sənədləşdirilməsinin düzgünlüyünə audit zamanı diqqət yetirilməlidir. Hüquqi şəxsin yenidən təşkili birləşmə, qoşulma, bölünmə, ayrılma və çevrilmə formasında həyata keçirilə bilər.

*Birləşmə* - eyni anda *(vahid qərar əsasında)* bir neçə hüquqi şəxsin fəaliyyətinə xitam verilməsi (ləğv edilməsi) və onların bazasında yeni hüquqi şəxs yaranmasıdır. Bu zaman fəaliyyətinə xitam verilən hüquqi şəxslərin hər birinin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq yeni (onların birləşməsindən) yaranmış hüquqi şəxsə keçir.

*Qoşulma* - eyni anda *(vahid qərar əsasında)* bir və ya bir neçə hüquqi şəxsin (qoşulanın) fəaliyyətinə xitam verilməsi və onların digər (qoşulmaq istədiyi) hüquqi şəxsə qoşulmasıdır. Bu zaman digər hüquqi şəxsin aktivləri, kapitalı və öhdəlikləri qoşulan müəssisənin aktivləri, kapitalı və öhdəlikləri qədər artır, yəni qoşulan hüquqi şəxslərin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq qoşulduqları hüquqi şəxsə keçir.

*Bölünmə* - eyni anda *(vahid qərar əsasında)* bir hüquqi şəxsin fəaliyyətinə xitam verilməsi (ləğv edilməsi) və onun bazasında iki və ya daha artıq yeni hüquqi şəxslərin yaranmasıdır. Bu zaman bölünən (parçalanan) hüquqi şəxsin hüquq və vəzifələri bölünmə balansına uyğun olaraq yeni yaranmış hüquqi şəxslərə keçir.

*Ayrılma* - eyni anda (vahid qərar əsasında) bir hüquqi şəxsin (ana hüquqi şəxsin) tərkibindən bir və ya bir neçə yeni hüquqi şəxsin yaradılması məqsədilə ayrılmasıdır. Bu zaman ayrılaraq yeni yaradılan hüquqi şəxs və ya şəxslər ana hüquqi şəxsdən ayrılan bazada formalaşır, həmçinin ana hüquqi şəxs də fəaliyyətinə xitam vermir (ləğv edilmir) və yenidən təşkil edilmiş şəkildə fəaliyyət göstərir.

*Çevrilmə* - eyni anda (vahid qərar əsasında) hüquqi şəxsin fəaliyyətinə xitam verilməsi və təşkilati-hüquqi formasını dəyişərək yeni hüquqi şəxslə əvəz olunmasıdır. Bu zaman hüquqi şəxs əvvəlki, həmçinin yeni fəaliyyətlə məşğul olmağa davam edə bilər və təhvil aktına uyğun olaraq, əvvəlki hüquqi şəxsin hüquq və vəzifələri yeni təşkilati-hüquqi formada yaradılmış hüquqi şəxsə keçir.

Hüquqi şəxslərin yenidən təşkili zamanı mühasibat sənədləşmələri üzrə müəyyən prosedurları yerinə yetirmək lazımdır. Hər bir yenidən təşkil forması üzrə qısaca olaraq sənədləşmə və uçot təhlillərinə diqqət yetirək.

***Ayrılma yolu ilə yenidən təşkilin auditi***

Ayrılma formasında yenidən təşkil zamanı bölünmə balansının tərtib olunması vacibdir. Bölünmə balansı dedikdə, adından məlum olduğu kimi, balansın iki və daha artıq hissəyə bölünməsi başa düşülür. Ayrılma zamanı ana müəssisənin ayrılma anına (ayrılma barədə qərarın verildiyi tarixə və ya qərarda göstərilən tarixə) mühasibat balansı tərtib olunmalı və balans məlumatları əsasında bölünmə balansı hazırlanmalıdır. Bölünmə balansında ayrılaraq yaradılması nəzərdə tutulan hüquqi şəxsə (şəxslərə) verilməli (keçməli) olan əmlakın, kapitalın və öhdəliklərin miqdarı ana hüquqi şəxsin təsisçilərinin (səhmdarlarının) ayrılma barədə verdiyi qərarda göstərilən payın miqdarına (faizinə, dərəcəsinə) müvafiq hesablanır. Yəni qərar üzrə ayrılan payın faiz dərəcəsi ana hüquqi şəxsin xalis aktivinə tətbiq olunur və ayrılan hüquqi şəxsə (şəxslərə) keçməli olan xalis aktivin miqdarı tapılır. Həmçinin ana hüquqi şəxsin ayrılma anına hazırlanan balansının bütün maddələrindəki məbləğlərə həmin faiz dərəcəsini tətbiq etməklə ayrılan hüquqi şəxsin ilkin balans göstəriciləri müəyyənləşdirilir. Burada balans maddələri arasında ana hüquqi şəxsin təsisçilərinin (səhmdarlarının) qərarına əsasən müxtəlif faiz dərəcələri tətbiq etmək olar. Məsələn, ayrılan hüquqi şəxsə keçən balansın material hesabından azaldılan məbləğ əsas vəsaitlər hesabına əlavə oluna bilər və yaxud malsatanlara olan borc məbləği çoxaldılaraq banka olan kredit borcu azaldıla bilər. Əsas odur ki, ayrılan hüquqi şəxsə keçən balans maddələri üzrə məbləğlər əsasında hesablanan xalis aktivin miqdarı ana hüquqi şəxsin təsisçilərinin (səhmdarlarının) ayrılma barədə verdiyi qərarda göstərilən payın dərəcəsinə müvafiq hesablanan xalis aktivin miqdarına bərabər olsun. Beləliklə, ana hüquqi şəxsin balansı iki və ya daha artıq yerə bölünür. Ayrılan balans üzrə keçən əmlak, kapital və öhdəliklər inventarizasiya olunmaqla təhvil-qəbul aktına əsasən ayrılan hüquqi şəxsin səlahiyyətli nümayəndələrinə təhvil verilir.

beynəlxalq panoram

## Beynəlxalq Forum keçirilmişdir

*May ayının 21-23-də Fransanın paytaxtı Paris şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD), Vergi Siyasəti və İnzibatçılıq Mərkəzinin (CTPA), Fiskal Siyasət Komitəsinin (CFA) Vergi Siyasəti təhlili və Vergi Statistikası (WP2) 85-ci görüşü keçirilmişdir.*

Tədbirdə dünyanın 40-dan çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrinin vergi administrasiyalarının yüksək rütbəli nümayəndələri iştirak etmişdir. Müzakirə olunan əsas məsələlər sadələşdirilmiş verginin mahiyyəti, vergi daxilolmalarının strukturu, elektron xidmətlərin göstərilməsi ilə bağlı olmuşdur.

Vergi siyasətinin nəzəri və praktiki məsələləri ilə birgə gəlirlərin statistikası məsələlərinə baxılmlşdır. Hal-hazırda dünyada vergi gəlirlərinin təhlili və onun ölkələr üzrə müqayisəli təhlilinin aparılması, vergitutma bazasının qiymətləndirilməsi üçün vahid göstəricilər sisteminin təkmilləşdirilməsinin mühüm əhəmiyyətə malik olması qeyd edilmişdir.

Tədbirdə Azərbaycanı Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin rəisi İmran Qarayev təmsil etmişdir. O, «Azərbaycanda vergi siyasəti və həyata keçirilən islahatlar» mövzusunda çıxış edilmişdir. Təqdimatda Azərbaycandakı vergi sistemi, vergi siyasətinin əsas istiqamətləri, əldə edilən nəticələr və qarşıda duran vəzifələrin istiqamətləri barədə məlumat verilmişdir. Qeyd olunmuşdur ki, Azərbaycanda həyata keçirilən vergi siyasətinin əsas istiqamətlərini vergi daxilolmalarının artması ilə yanaşı, iqtisadiyyatın modernləşdirilməsi, innovasiya yönümlü inkişafın stimullaşdırılması məqsədi ilə müvafiq vergi mexanizmlərinin tətbiqi təşkil edir. Təqdimat ətrafında müzakirələr aparılmış və verilən suallara, maraq doğuran məsələlərə Azərbaycan nümayəndəsi tərəfindən münasibət bildirilmişdir.

Forumun sonunda işçi qrupun 2013-cü ilin noyabr ayında keçiriləcək görüşündə gündəliyə hansı məsələlərin salınacağına baxılmışdır.

## Böyük Britaniya hökuməti elitar əmlak üçün yeni vergi qoymağı təklif edir

*Böyük Britaniyada vergi rejimi planlaşdırılmış şəkildə get-gedə sərtləşdirilir. Bundan əvvəl gerb yığımı artırılmış və 2 milyon funt-sterlinqdən baha əmlak almış offşor şirkətləri üçün yeni vergi tətbiq olunmuşdu. Bu yaxınlarda isə Liberal Demokrat Partiyası bahalı əmlak üçün «mülk vergisi» (mansion tax) tətbiq etməyi təklif edib.*

İllik ödənilməsi nəzərdə tutulan bu verginin minimal məbləğinin min funt-sterlinq (0,05%), dəyəri 20 milyon funt-sterlinqdən baha mülklər üçün maksimal məbləğinin isə 180 min funt-sterlinq (0,9%) təşkil edəcəyi gözlənilir.

«Bu vergidən büdcəyə o qədər də böyük vəsait daxil olmayacaq, əgər qanun liberal demokratların təklif etdikləri şəkildə qəbul olunarsa, yığılan məbləğ 1,6 milyard dollar civarında olacaq», - «Savills» agentliyinin araşdırmalar şöbəsinin rəhbəri Lüsian Kuk belə hesab edir. Analitiklərin fikrincə, «mülk vergisi»nin müəyyən mənfi nəticələri də ola bilər, çünki ölkənin böyük mülk sahibi olan imkanlı vətəndaşlarının (xüsusilə Londonda və Cənub-Şərqi İngiltərədə) vergi yükü gerb yığımı və vərəsəlik vergiləri ilə kifayət qədər ağırlaşdırılıb.

## Ukraynada xaricdən göndərilən pul köçürmələrindən vergi tutulur

*Ölkənin Gəlirlər və Yığımlar Nazirliyindən bildirildiyinə görə, Ukrayna vətəndaşlarının cari və ya kart hesablarına xaricdən daxil olan pullar xarici gəlir hesab edilir və buna görə də vergiyə cəlb olunur.*

*Verginin dərəcəsi göndərilən pulun məbləğindən asılı olaraq 15% və 17% təşkil edir. Əgər aylıq gəlir minimal əməkhaqqının (2013-cü ilin yanvar-noyabr ayları üçün minimal əməkhaqqı səviyyəsi 1147 qrivna (110 manat) məbləğində götürülmüşdür) 10 mislindən artıq olarsa, bu artım məbləği üçün 17% dərəcə ilə vergi tətbiq olunur.*



Vergi hesablanarkən xarici valyutada göndərilmiş pulun qarşılığı Mərkəzi Bankın vəsaitin daxil olduğu gün üçün müəyyənləşdirdiyi valyuta kursu üzrə qrivna ilə götürüləcək. Gəlirlər və Yığımlar Nazirliyi tərəfindən qeyd edildiyinə görə, vətəndaşların Ukraynadan kənar mənbələrdən əldə etdikləri gəlirlərdən vergi tutulması ölkənin Vergi Məcəlləsinin müvafiq maddəsi ilə tənzimlənir.

Xatırladaq ki, 2012-ci ildə Ukraynaya xaricdən göndərilən pulların məbləği xeyli azalıb: rezident və qeyri-rezident sistemlər üzrə il əzində göndərilən məbləğ 4,297 milyard qrivna (414 milyon manat) olmuşdur: bu, əvvəlki illərlə müqayisədə kəskin şəkildə azalma deməkdir.

## Avropa Birliyi vergidən yayınanlara qarşı mübarizəni gücləndirir

*Hazırda Avropa Birliyində (AB) gedən proseslər aydın göstərir ki, Birliyə üzv ölkələrin başçıları vergidən yayınanlara qarşı mübarizədə ilin sonuna qədər daha təsirli irəliləyiş əldə etmək istiqamətində səyləri birləşdirmək niyyətindədirlər.*

2005-ci ildən bəri AB-nin, demək olar ki, bütün üzv ölkələri bir-birini faiz gəlirləri haqqında



məlumatlandırırlar ki, burada məqsəd investorların öz yaşadıqları ölkələrdə vergiyə cəlb olunmalarına şərait yaratmaqdır. Bank sirlərinin mühafizə edilməsi mülahizəsinə əsaslanan Avstriya və Lüksemburq isə AB ölkələri arasında dividendlərə vergi tətbiq olunması məsələsində istisna təşkil edirlər. Bununla belə, adları çəkilən hər iki ölkə AB-nin ona üzv olmayan ölkələrlə, xüsusən də İsveçrə ilə vergi mövzusunda danışıqları başa çatandan sonra AB Direktivinə uyğun olaraq avtomatik informasiya mübadiləsi prosesinə qoşulmaq niyyətindədir. Beləliklə, AB-də bank sirlərinin mühafizə olunmasının sonu yaxınlaşmaqdadır.

2008-ci ildən mövcud olan sazişlərin yeni şərtlərə və əmanətlər barədə Direktivlər üzrə islahata uyğunlaşdırılması üçün İsveçrə, Lixtenşteyn, Andorra, Monako və San-Marino ilə yeni saziş imzalamağa ehtiyac var. AB Komissiyası bununla boşluqları tuta biləcək. Faiz gəlirləri yalnız banklara deyil, investisiya və pensiya fondlarına da aid ediləcək. AB ölkələri bu ilin sonuna qədər qəbul etmək üçün şərtləri müəyyənləşdirməyi planlaşdırırlar.

Əcnəbilərin digər gəlirləri haqqında məlumat mübadiləsi AB-nin administrativ əməkdaşlıq barədə Direktivi ilə nizamlanır. 2015-ci ildən əmək gəlirləri, icra ödəmələri, həyat sığortası, pensiya və əmlakdan gələn gəlirlər barədə məlumatlar mübadilə edilməlidir. Bu şərtin hazırda dividendlərə və investisiyalardan əldə edilən digər gəlirlərə də tətbiqi müzakirə olunur. Bununla bağlı AB Komissiyası iyunda təklif irəli sürəcək.

Bütün bunlara baxmayaraq, şirkətlərin vergilərdən yayınmasının azaldılması kimi mühüm məsələlərdə çox cüzi dəyişiklik olmuşdur. Avropa Komissiyası bu məsələ ilə bağlı üzv dövlətlər üçün tövsiyələr üzərində işləyir. Əsas və törəmə şirkətlər barədə müddəalarda dəyişiklik edilməsi ilə bağlı təklif irəli sürülməsi planlaşdırılır, mövcud qaydalar isə törəmə şirkətlərə sərbəstlik verir. Biznesdə vergi qoyulmasına aid etik-davranış kodeksində də ciddi dəyişikliklər ediləcəyi gözlənilir.

Avropa Parlamenti, həmçinin, gəlir vergisi üçün vahid vergi bazasının tətbiq olunmasını tövsiyə edir və ayrı-ayrı ölkələrdə öz vergi ödəmələrini açıqlamaq üçün korporasiyalar qarşısında yeni tələblər qoymaq niyyətindədir. İndiyə qədər şəffaflıq tələbləri yalnız banklara və enerji sektoruna şamil olunurdu.

AB tərəfindən geniş istifadə olunan transsərhəd sövdələşmələr zamanı satışdan vergi sahəsində fırıldaq AB ölkələrində geniş yayılıb. Aydın olmuşdur ki, tullantıların ticarəti üzrə ƏDV ilə bağlı bu metod kütləvi saxtakarlıqlara yol açır. AB Komissiyasının mövqeyinə görə, bu, həcmi böyük olmayan əşyalara da tətbiq olunmalıdır: kompüter çipləri, mobil telefonlar, ətriyyat məhsulları və qiymətli metallar üçün qoyulan ƏDV ilə bağlı vergi fırıldağı indi dünyada geniş yayılmışdır.

## Türkiyə hökuməti vergilər üzrə könüllü əməletməyə böyük əhəmiyyət verir

*Ölkənin maliyyə naziri Mehmet Şimşək vergilərin yığılması sahəsində informasiya texnologiyalarından istifadənin marağı olan bütün tərəflərin xeyrinə olduğunu söyləmişdir.*

Türkiyə Cümhuriyyətinin maliyyə naziri İstanbulda təşkil edilmiş «Vergi cənnətinə çevrilmiş ölkələrin yaratdığı zərərli vergi rəqabəti ilə mübarizə» mövzusunda beynəlxalq toplantıda çıxış etmişdir.

«Biz vergi sahəsində informasiya texnologiyalarından geniş istifadə etməliyik. İndiyədək gəlir idarəsi olaraq elektron faktura, elektron dəftər və s. kimi sahələrdə çox mühüm məsafələr qət etmişik. İndi bu, əslində, həm vergi ödəyicisinin - vicdanlı vergi ödəyicisinin, həm də vergi orqanının və vətəndaşın xeyrinədir. Çünkü bizim başlıca məqsədimiz vergi şərtlərinə könüllü əməletmə səviyyəsini artırmaqdır, bununla yanaşı, əməletmə zamanı problem yaradanlara qarşı da təsirli mübarizə tədbirləri görmək lazımdır. Hazırda qeydiyyatdankənar fəaliyyət Türkiyə iqtisadiyyatının ən böyük problemlərindən biridir. Özü də bu, sadəcə, vergi qeydiyyatından yayınma məsələsi deyildir. Bu, əslində, miqyasların böyüdülməsi, maliyyə mənbəyi əldə edə bilməməsi, həmçinin məhsuldar işləməmək məsələsidr», - maliyyə naziri Mehmet Şimşək demişdir.

krossvord




**Soldan sağa:**
1.Birləşmiş Millətlər Təşkilatının 7-ci Baş katibinin soyadı; 4.Düzbucaqlı üçbucağın düz bucağı əmələ gətirən tərəfləri; 6.Təşkilata, müəssisəyə borcu olan hüquqi və ya fiziki şəxs; 8.Əmtəə istehsalı və satışı, xidmət göstərilməsi və iş görülməsi ilə məşğul olan təsərrüfat subyektlərində mühasibat uçotunun dəqiq və dürüst aparılmasının, mühasibat və maliyyə hesabatlarının müstəqil yoxlanılması; 10.Ruhlara, magiyaya inanan xalqlarda (əsasən şimal xalqlarında) sehrbaz, ovsunçu, cadugər; 12.Azərbaycanda çay; 13.Çin döyüş sənəti növü; 14.Azərbaycanın xalq yazıçısı; 15.Karib dənizi hövzəsində ölkə; 17.Avrodan əvvəl Fransa, Belçika, Lüksemburq, İsveçrə kimi ölkələrdə pul vahidi; 20.Latviya bəstəkarı, dirijor pianoçu və siyasi xadimin adı; 21.Açılacaq söz, rəsmlərlə birgə hərflər və digər işarələrlə verilən bilməcə; 22.Gülçiçəyikimilər fəsiləsinə aid dadlı meyvəsi olan bitki cinsi.

**Yuxarıdan aşağı:**
1.Böyük qan dövranının qoşa olmayan ən böyük arterial damarları; 2.Məşhur Azərbaycan qadın xeyriyyəçisinin adı - Təzəpir məscidini tikdirib; 3.Şotlandiyalı mühəndis, ixtiraçı-mexanik. Ən böyük nailiyyəti buxar maşınını təkmilləşdirmək olmuşdur. 4.Türkiyənin pul vahidi (qəpik); 5.2006-cı il Qış Olimpiya Oyunlarının keçirildiyi ölkənin paytaxtı; 7.Simli musiqi aləti; 9.Monoizmin əksinə maddi və ruhi substansiyaları bərabərhüquqlu başlanğıclar hesab edən fəlsəfi təlim; 11.Rusiyanın Omsk vilayətində çay; 15.Qədim yunan şairi (e.ə. VIII əsr); 16.Mələk, peyğəmbər; 17.Müğənni, Azərbaycanın xalq artistinin (1992) adı; 18.Cərəyanın mənfi qütbünə qoşulmuş hər hansı bir qurğunun elektrodu; 19.İctimai-siyasi xadim, Azərbaycan SSR-nin maarif üzrə xalq komissarı, «Şərq qadını» jurnalının redaktoru (1923-1938).

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:**
1.Babizm; 2.Herat; 3.Arka; 5.Arxi; 6.Florida; 7.Rüstəm *(Süleyman)*; 8.Stinq; 14.İTV; 15.Aza; 17.Avtoqol; 19.Xanlar; 20.Sambo; 21.Anqola; 25.Talsi; 26.Uşak; 27.Azıx.

**Soldan sağa:**
1. Bəhram *(Mansurov)*; 4.Farfor 9.Bərəkət; 10.Xeops; 11.Zeta; 12.RNT; 13.Civə; 16.Fanta; 18.Uznam; 22.Aktu; 23.Tağ; 24.Etan; 28.Laqaş; 29.Bazilio; 30.Relikt; 31.İxtira.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.
Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 15000

idman

# «Tour d'Azerbaidjan - 2013»ün yekunları yüksək dəyərləndirilir

*Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi münasibətilə 2013-cü il mayın 1-dən 5-dək keçirilmiş «Tour d'Azerbaidjan - 2013» beynəlxalq velosiped turu respublikamızın beynəlxalq səviyyəli idman yarışlarını layiqincə təşkil etmək üçün zəruri maddi-texniki bazaya və təcrübəyə malik olduğunu təsdiqləməklə yanaşı, dünya ictimaiyyətinin diqqətini Bakıya yönəltdi. İstər turun keçirildiyi günlərdə, istərsə də sonrakı mərhələdə aparılan müzakirələr, səsləndirilən fikir və rəylər velosiped idmanının yenicə inkişaf etməyə başladığı respublikamızın bu sahədə yüksək potensialının nümayiş etdirilməsi və tanıdılması kimi diqqəti cəlb etdi.*
*Yerli və əcnəbi idmançıların, eləcə də jurnalistlərin qəzetimizə açıqlamaları Azərbaycanın təkcə yüksək təşkilatçı deyil, həm də velosiped idmanı sahəsində uğurlu nəticələr əldə etməyə qadir ölkə olduğunu bir daha təsdiqləyir.*



**«Qarşıya qoyduğumuz hədəflərə çata bildik»**
*Ceremi HANT, «Synergy Baku Cycling Project» komandasının idman direktoru:*

- Hesab edirəm ki, komanda olaraq qarşımıza qoyduğumuz hədəflərə çata bildik. Veloturda iştirak bizim üçün xüsusilə məsuliyyətli idi. Yalnız bu səbəbdən ki, yarışın təşkilatçısı Azərbaycan idi və bu mənada üzərimizdə psixoloji yük hiss edirdik. Velosiped İdmanı Federasiyası rəhbərliyinin, sponsorların, respublikanın velosiped idmanı həvəskarlarının ümidlərini sarsırtmağa mənəvi haqqımız yox idi. Elə buna görə də yarışlara çox ciddi və gərgin şəraitdə hazırlaşırdıq. Yarışa qədər komandanın taktika və strategiyası müəyyənləşdirilmiş, rəqiblərin potensialı nəzərə alınmışdı.

«Tour d'Azerbaidjan»ın komandamız üçün çətin bir sınaq olacağını bilsək də, yarışa qələbə əzmi ilə qatılmışdıq. Təsadüfi deyil ki, ilk mərhələnin qalibi də məhz komandamızın sprinteri Kristof Şvaytser oldu. Onun ən yaxşı sprinter köynəyini sonadək özündə saxlaya bilməsi üçün komandamızın üzvləri birlik və əzmkarlıq göstərdilər. Digər komanda üzvlərindən Aleksandr Surutkoviç və Konor Makkonveyin çıxışlarını da uğurlu hesab edirəm. Onlar sprint və dağ yarışlarında qənaətbəxş nəticələr göstərdilər. Ümumilikdə, komandanın bu yarışda iştirak səviyyəsi bizi ümumən qane edir. Təbii ki, hədəfimiz qarşıdakı yarışlarda daha yaxşı nəticələr göstərməkdir.

**«Evrovizion - 2012» ilə başlanan uğur estafeti «Tour d'Azerbaidjan - 2013»lə davam etdirildi»**
*Elçin ƏSƏDOV, «Synergy Baku Cycling Project» komandasının üzvü, «Azərbaycanın ən yaxşı idmançısı» köynəyinin sahibi:*

- Azərbaycanda keçirilmiş velotur, ilk növbədə, respublikamızın dünyaya təqdim olunması baxımından yeni bir fürsət oldu. Respublikamız bu yarışı 2012-ci ildəkindən daha yaxşı səviyyədə təşkil etməklə idman ölkəsi olduğunu nümayiş etdirdi. Yarışın təşkilatçılıq səviyyəsi, ümumiyyətlə, respublikamızın bütün sahələrdə dinamik inkişaf edən ölkə olması ilə bağlı səsləndirilən fikirlər bir azərbaycanlı kimi məndə qürur hissi doğururdu. Milyonlarla insan bir neçə gün ərzində xalqımızın yüksək mədəni səviyyəsinin, qonaqpərvərliyinin, Bakı şəhərinin və regionların sürətlə inkişaf etdiyinin şahidi oldu. Belə demək mümkünsə, «Eurovision-2012» ilə başlanan uğur estafeti «Tour d'Azerbaidjan - 2013»lə davam etdirildi.

«Synergy Baku Cyclinq Project» komandasının ümumi komanda hesabında 4-cü yeri tutmasını böyük göstərici kimi dəyərləndirmək lazımdır. Yeni yaradılmış komanda yaxşı nəticə göstərmək üçün bütün səy və imkanlarını nümayiş etdirdi. Güclü komandaların, nüfuzlu idmançıların iştirak etdiyi yarışın favoritlərindən birinə çevrilmək yeni yaradılmış komanda üçün, əslində, çox böyük nəticədir.

**«Bu, hələ uğurlamızın başlanğıcıdır»**
*Aleksandr SURUTKOVİÇ, «Synergy Baku Cycling Project» komandasının üzvü:*

- Komandamızın üzvləri ilk gündən təşəbbüsü ələ alaraq yarışın bütün mərhələlərində yüksək əzmkarlıq nümayiş etdirdilər. Komanda bu əzmkarlığı, birliyi nəticəsində ilk mərhələdə birinci, ikinci mərhələdə ikinci, üçüncü mərhələdə üçüncü, dördüncü mərhələdə yenə də ikinci yerin sahibi oldu. Bütün mərhələlərdə fəxri kürsüdə yer almağımız həm komandamızın rəhbərliyi, həm də sponsorlarımız tərəfindən yüksək dəyərləndirildi. Açığını deyim ki, rəqiblərimiz Azərbaycan komandasının belə iddialı nəticələr göstərəcəyini gözləmirdilər. Bu mənada, «Synergy Baku Cyclinq Project» komandasının perspektivli komanda olduğunu hazırda bütün dünya etiraf edir.

Komandamız cəmi 4-5 ay ərzində 4 beynəlxalq yarışda iştirak edib və hamısında da layiqli nəticələr əldə edib. Bütün bunlar isə, ilk növbədə, Azərbaycan Velosiped İdmanı Federasiyasının göstərdiyi diqqətin nəticəsidir.

**«Azərbaycan sürətli inkişaf yolunda olan ölkədir»**
*Bəxtiyar KOJATAYEV, Astana komandasının üzvü, «Ən yaxşı gənc idmançı» köynəyinin sahibi:*

- Bununla ikinci dəfədir ki, Azərbaycanda mötəbər yarışda iştirak edirəm. Ölkənizdə velosiped turlarının yüksək səviyyədə təşkil olunması, hər bir detalın nəzərə alınması məndə çox pozitiv qənaət yaradıb. Burada təşkilatçılıq Avropanın ən inkişaf etmiş ölkələrindən qətiyyən geri qalmır, hətta bəzi hallarda onları üstələyir.

Bakı şəhərinin gözəlliyini xüsusilə qeyd etmək istərdim. Şəhər tarixiliyin və müasirliyin qabarıq elementlərini özündə birləşdirir. Ümumiyyətlə, Azərbaycan bu gün regionda ən sürətlə inkişaf edən ölkədir. Buradakı insanların qonaqpərvərliyi, mülayim, xoş ünsiyyəti, eyni zamanda velotura yüksək marağı da diqqətimi çəkdi.

Konkret yarışın nəticələrinə gəlincə, çox güclü rəqiblərlə mübarizə aparmalı oldum. Göstərdiyim nəticəni qənaətbəxş sayıram. Hesab edirəm ki, gənc idmançı kimi uğurlarım hələ irəlidədir.

**«Synergy Baku Cycling Project» komandası diqqəti özünə cəlb etdi»**
*Oleq ŞUMEYKO, «Eurosport» telekanalının əməkdaşı:*

- Azərbaycanda olmaq, burada işləmək, veloturla bağlı operativ materiallar hazırlamaq mənim üçün çox xoş oldu. Hesab edirəm ki, bu velotur, ilk növbədə, ölkənizin təqdimatı - onun yüksək iqtisadi inkişafı, idman yarışlarını normal səviyyədə təşkil etmək bacarığı, mədəniyyəti, incəsənəti barədə dolğun təsəvvürlərin formalaşdırılması, eləcə də turizm imkanlarının təbliği baxımından yaxşı təşkil olunmuşdu. İstər helikopterdə, istərsə maşında çəkilişlər apararkən Azərbaycanın füsunkar təbiətinin şahidi oldum. Məncə, ölkənin relyefi və təbii imkanları belə turların yüksək səviyyədə təşkilinə imkan yaradır.

Düşünürəm ki, bütün komandalar sonadək gərgin mübarizə apardılar. Azərbaycanın «Synergy Baku Cycling Project» komandasının yarış zamanı diqqəti özünə cəlb etməyi bacarması isə gözlənilməz oldu. Yeni yaradılmış komanda bütün mərhələlərdə yer qazana bildi. Əlbəttə, bu qələbədə azərbaycanlı azarkeşlərin fəal dəstəyini də qeyd etmək istərdim. Yarışın bütün mərhələlərində insanların fəallığının, Azərbaycan komandasına azarkeşlik etməsinin şahidi oldum.

**S.MUSTAFAYEV**



Aylin KOÇ
Türkiyənin «Cyclingtr.com» xəbər agentliyinin baş redaktoru

## Velosiped yarışları Azərbaycanı bir daha dünyaya tanıtdı...

*Dünya idman tarixində hazırda velosipedə olan böyük maraq və tamaşaçı kütləsinin ilbəil artması ilə bu idman növü bir çox ölkələr üçün turizm potensialının təşviq olunması baxımından da mühüm əhəmiyyət kəsb edir. Velosiped idmanı bir çox ölkələrdə turizmin təbliği üçün əlverişli vasitə kimi dəyərləndirilir. «Tour d'Azerbaidjan», bu baxımdan, Azərbaycanın turizm ölkəsi kimi regionda ön yerlərdən birini tutduğunu nümayiş etdirdi. Qardaş ölkənin möhtəşəm təbiəti, velosiped yarışlarının keçirildiyi dağətəyi yolların gözoxşayan gözəlliyi, yolboyu hündür və rəngbərəng ağacların təravəti və diqqətçəkən yamyaşıl təbiətin füsunkarlığı Azərbaycanın turizm ölkəsi kimi dünyaya açıldığını göstərirdi.*

...Mən Bakının gözəl şəhər olduğunu yaxşı bilirdim, yaşadığım İzmirlə qardaşlaşmış şəhər olan Bakının son illərdə nə qədər böyük inkişaf yolu keçdiyi barədə xeyli məlumatım vardı, amma bölgələrin turizm üçün bu qədər cəlbedici olması haqqında təsəvvürüm yox idi. Qəbələ və İsmayıllını görəndən sonra Azərbaycanın xarici ölkələrin turistləri üçün qapılarını taybatay açan, dünyanın ən gözəl şəhərlərinin sakinlərini özünə cəlb etmək gücündə olan turizm mərkəzinə çevrilməsinə heç şübhəm qalmadı. Qəbələnin yamyaşıl təbiəti, İsmayillının çiyin-çiyinə vermiş dağları adamı ovsunlayırdı. Hər bir ölkənin turizm üçün gözəl təbiət mənzərəsi olduğunu inkar etmək olmaz, amma Azərbaycanla bağlı onu söyləyə bilərik ki, bu ölkədə ekoturizm üçün böyük imkanlar vardır, burada təbiətin yaratdıqlarına kənar müdaxilə yoxdur, təbiətin mənzərəsini dəyişdirəcək təsirlər, sünilik gözə dəymir, hər şey təbiidir. Turizm üçün digər diqqətçəkən məqam isə dövlətin bu sahəyə son dərəcə həssas yanaşmasıdır, sosial infrastrukturun inkişafına böyük həcmdə sərmayə qoymasıdır. Yeri gəlmişkən, son illər turizmin inkişafına təkan vermək hökumətin hədəfindədir. Dövlətin bu sahəyə verdiyi önəm özəl şirkətlərin də diqqətini gücləndirib və turizmə yönəldilən sərmayələr öz bəhrəsini verməkdədir: bu mənzərə Türkiyənin özündə ən son illərdə ən çox müşahidə olunan hallardandır.

Qəbələ və İsmayıllının mənzərəsini seyr edərkən məndə belə təəssürat yarandı ki, yalnız şəhərkənarı ərazilər deyil, Azərbaycanın bu dilbər güşələrinin hər bir parçası, rayondakı bütün kəndlər yaşıl turizm üçün Tanrının bəxş etdiyi ən gözəl məkanlardır. Buradakı şərait müalicə, istirahət turizmi üçün geniş imkanlar yaradır.

...«Tour d'Azerbaidjan» velosiped yarışı təbiətin oyanan, hər yerin yaşıl libasa bürünən dövrünə təsadüf etdiyindən çempionatın keçirildiyi marşrutları seyr edən insanlarda Azərbaycanın bölgələrinin yalnız yaz-yay turizmi üçün əlverişli olması barədə təsəvvür yaratmamalıdır. Bizim müşahidələrimiz və öyrəndiklərimiz göstərdi ki, İsmayıllı, Qəbələ və digər mənzərəli yerlər bütün fəsillər, xüsusilə də qış turizmi üçün çox əlverişlidir. Burada ovçuluq, atçılıq, dağ və digər turizm növlərinin inkişafı üçün geniş imkanlar var. Turizm obyektləri qış aylarında da rayonlara gələcək turistlərə yüksək səviyyədə xidmət göstərməyə hazırdır. Biz sözlə, həm gəzmək, həm müalicə olunmaq və ən əsası da bütün fəsillərdə səyahətə çıxmaq istəyənləri Azərbaycanın ən səfalı bölgələri qarşılamağa hazırdır...

Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti Patrik Makkuayt da Azərbaycanın dünyaya tanıdılması baxımından velosiped yarışlarının əhəmiyyətini qeyd etməklə yanaşı, gözəl bir diyar olduğunu diqqətə çatdırdı...

## Velosipedçimiz «An Post Ras 2013» turnirində dördüncü mərhələnin qalibi olub

*İrlandiyada «An Post Ras 2013» çoxgünlük veloyürüş keçirilir. Turnirdə Azərbaycanın «Synergy Baku» komandası da iştirak edir.*

Azərbaycan Velosiped İdmanı Federasiyasının yaydığı xəbərə görə, «Synergy Baku» komandasının üzvü Kiril Pozdnyakov məsafəni 3 saat 28 dəqiqə 17 saniyəyə qət edərək, veloyürüşün dördüncü mərhələsinin qalibi olmuşdur. Digər idmançılarımız - Konnor Makkonvi (3 saat 28 dəqiqə 45 saniyə) finişə 7-ci, Con Ebsen (3 saat 30 dəqiqə 24 saniyə) 24-cü, Riko Rocers (3 saat 32 dəqiqə 16 saniyə) 38-ci, Kristof Şvaytser (3 saat 52 dəqiqə 27 saniyə) 96-cı çatmışlar.

Əsas təsnifat yarışlarında Konnor Makkonvi (13 saat 5 dəqiqə 28 saniyə) üçüncü yerdən ikinciyə, Con Ebsen (13 saat 7 dəqiqə 54 saniyə) 51-ci yerdən 19-cu yerə, Kiril Pozdnyakov (13 saat 23 dəqiqə 41 saniyə) 113-cü yerdən 85-ci yerə, Kristof Şvaytser (13 saat 33 dəqiqə 38 saniyə) 102-ci yerdən 91-ci yerə yüksəlmiş, Riko Rocers (13 saat 9 dəqiqə 46 saniyə) 15-ci yerdən 31-ci yerə düşmüşdür. Sprinter yarışında Riko Rocers (21 xal) 5-ci, Konnor Makkonvi (19 xal) 8-ci, Kiril Pozdnyakov (15 xal) 13-cü yerdədir.

Dağ təsnifatında Con Ebsen (13 xal) 6-cı, Kiril Pozdnyakov (13 xal) 7-ci, Konnor Makkonvi (6 xal) 12-ci yeri tutmuşlar. «Synergy Baku» komandası dördüncü mərhələdə qazandığı qələbədən sonra əsas komanda təsnifatına (39 saat 19 dəqiqə 10 saniyə) başçılıq edir. Beynəlxalq Velosipedçilər İttifaqının 2.2 kateqoriyalı Avropa turunun «An Post Ras 2013» veloyürüşündə «Synergy Baku» komandasını Konnor Makkonvi, Kristof Şvaytser, Riko Rocers, Con Ebsen və Kiril Pozdnyakov təmsil edirlər.

## Azərbaycan güləşçiləri beynəlxalq turnirlərdə uğurla çıxış ediblər

**Yeniyetmə qızlarımız Türkiyədə üst-üstə səkkiz medal...**

Antalyada güləş üzrə qadınlar arasında «Zəfər Kuboku» beynəlxalq turniri keçirilmişdir. Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, yarışda ölkəmizi təmsil edən yeniyetmə qızlar üç qızıl, bir gümüş və dörd bürünc medal qazanmış və komanda hesabında turniri üçüncü sırada tamamlamışlar.

Azərbaycan idmançıları Ülkər Babayeva (38 kq), Sona Tumarxanova (46 kq) və Şəbnəm Əhmədova (49 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxmışlar. Digər güləşçilər Ləman Qurbanova (56 kq) gümüş, Türkan Nəsirova (43 kq), Gülcahan Hacıyeva (46 kq), Leyla Qurbanova və Tatyana Vorontsova (hər ikisi 52 kq) turniri bürünc medalla başa vurmuşlar.

**...Kişi idmançılarımız isə Dağıstanda üç qızıl medal qazanıblar**

Dağıstanın Mahaçqala şəhərində beşqat dünya çempionu Əli Əliyevin xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə ənənəvi beynəlxalq turnir keçirilmişdir. Sərbəst güləş üzrə yığma komandamız turnirdə iştirak etmiş və 3 qızıl medal qazanmışdır.

32 güləşçinin mübarizə apardığı 60 kiloqram çəki dərəcəsində idmançımız Hacı Əliyev finala qədər irəliləyərək həlledici görüşdə dağıstanlı Artyom Gebekovu da məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır.

Digər güləşçilərimiz - Ağahüseyn Mustafayev (66 kq) finalda dağıstanlı Cəlaluddin Qurbanəliyeva, ən ağır çəkidə mübarizə aparan təmsilçimiz Aslan Dzebişov isə həlledici mərhələdə ukraynalı Alen Zaseyeva qalib gələrək qızıl medal qazanmışlar. Qalib Əliyev (60 kq) və Hacı Əlicanov (96 kq) isə turniri beşinci sırada tamamlamışlar.

Qeyd edək ki, məşqçilər David Kurtsiya, Nazim Əlicanov və Siracuddin Eldarovun rəhbərliyi altında turnirdə 11 güləşçimiz mübarizə aparmışdır. Heyətdə Hacı Əliyev, Qalib Əliyev (hər ikisi 60 kq), Ağahüseyn Mustafayev, Məhəmməd Müslümov (hər ikisi 66 kq), Cəbrayıl Həsənov, Aleksandr Qostiyev (hər ikisi 74 kq), Məhəmmədhacı Xatiyev (84 kq), Hacı Əlicanov (96 kq), Əli İsayev, Aslan Dzebişov və Əli Maqomedabirov (hamısı 120 kq) yer almışlar.